AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN İRƏVAN BÖLGƏSİ XVII ƏSRİN SONU-XIX ƏSRİN ORTALARINDA

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Elçin Teymur oğlu Qarayev**

elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Yeni tarix və Azərbaycan xalqına qarşı soyqrımları tarixi" şöbəsində yerinə yetirilmişdir

**Elmi məsləhətçi:** tarix elmləri doktoru, professor
**Tofiq Teyyub oğlu Mustafazadə**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**İsmayıl Məhərrəm oğlu Musa**

professor doktor
**İbrahim Kaşif oğlu Tellioğlu**

tarix elmləri doktoru, dosent
**İbrahim Feyzulla oğlu Kazımbəyli**

tarix elmləri doktoru, dosent
**Vaqif Şirin oğlu Abışov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent

**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor

**Mais İsrail oğlu Əmrahov**

# I. DISSERTASIYANIN ÜMUMI SƏCIYYƏSI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın ayrı-ayrı bölgələrinin tarixinin öyrənilməsi Vətən tarix elminin ən vacib vəzifələrindən biridir. Xüsusilə, Azərbaycanın "itirilmiş torpaqlarının" tarixinin öyrənilməsi tariximizin bir çox qaranlıq məqamlarının işıqlandırılması baxımından çox əhəmiyyətlidir. Belə bölgələrdən biri də Azərbaycanın qədim və ayrılmaz tərkib hissəsi olan İrəvan bölgəsidir. Bu bölgənin tarixi Azərbaycan tarixşünaslığında az öyrənilmiş sahələrdən biridir. Çar Rusiyanın köməyi ilə Azərbaycanın İrəvan xanlığında məskunlaşan ermənilər "Böyük Ermənistan" yaratmaq xülyası ilə Azərbaycan türklərinə qarşı təcavüzkar siyasəti yeritməklə, soyqrım həyata keçirməklə XX əsrin əvvəllərində dövlət yaratmağa nail olmuşdular. Əllərinə düşən bu fürsətdən istifadə edən ermənilər nəinki İrəvan xanlığının tarixini saxtalaşdımış, bu ərazinin onların əcdadlarının olması haqqında saxta faktlara əl atmağa başlamış, öz məkrli niyyətlərinə dünya miqyasında haqq qazandırmağa çalışmışlar. Onlar bu bölgədə Azərbaycan xalqına məxsus tarixi abidələri zaman-zaman məhv etmiş, yer, çay və göl adlarını "eməniləşdirmişdilər". Ermənilərin bu fəaliyyəti Cənubi Qafqazı müstəmləkəyə çevirmək, burada xristian çoxluğuna nail olmaqla "bufer dövlət" yaratmaq istəyən Rusiyanın siyasətinə uyğun olduğundan uydurma nəzəriyyələr yaradılmış, istər rus qafqazşünaslarının əsərlərində, istərsə də sovet tarix elmində hökm sürən konsepsiyaya görə, İrəvan bölgəsi ermənilərin uydurduqları "Böyük Ermənistan"ın tərkib hissəsi kimi göstərilmişdir. Azərbaycan sovet tarixşünaslığında isə bu haqda susulmuş, tariximizi obyektiv tədqiq edənlərə millətçi damğası vurulmuş və Azərbaycanın bu əzəli ərazisi sosializmin "beynəlmiləl" və "qardaşlıq" prinsiplərinə əsasən ermənilərə "güzəşt edilmişdir".

Lakin XX əsrin 90-cı illərin əvvəllərində Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra tariximizin obyektiv şəkildə öyrənilməsi üçün böyük imkanlar yarandı. Xüsusilə Ümummilli lider H.Ə.Əliyevin və onun layiqli davamçısı İ.H.Əliyevin Azərbaycan tarixinin hərtərəfli və obyektiv tədqiq olunması üçün tarixçilərin qarşısında qoyduqları vəzifələr tariximizin

dərindən öyrənilməsini daha da sürətləndirdi. Tarixi faktlara yenidən müraciət edən Azərbaycan tarixçiləri xalqımızın keçdiyi tarixi yolu nəzərdən keçirərkən məlum olmuşdir ki, Rusiyanın məkrli siyasəti nəticəsində ermənilər qonşu dövlətlərdən İrəvan bölgəsinə köçürülmə nəticəsində çoxluğa nail olmuş, bundan yararlanaraq yerli Azərbaycan türklərinə qarşı soqrımı həyata keçirməklə, bölgəni özününküləşdırməyə başlamışdılar. Sovet hakimiyyəti illərində isə ikiüzlü siyasət yürütməklə bu bölgədən Azərbaycan türklərini dədə-baba yurdlarından tədricən qovaraq, 1988-ci ildən açıq şəkildə təmizləmə siyasəti həyata keçirmişdilər. Yüz minllərlə azərbaycanlı tarixən yaşadığı doğma yurdlarından qovuldu. Bu azmış kimi, ermənilər xaricdəki havadarlarına arxalanaraq Azərbaycana qarşı yeni-yeni torpaq iddiaları irli sürmüş, XX əsrin 90-cı illərin əvvəllərindən başlayaraq Azərbaycanın dilbər güşəsi olan Qarabağı müvəqqəti də olsa işğal edə bilmişdilər.

Lakin xalqımız heç vaxt bu işğalla barışmamış, keçən bu illər ərzində Azərbaycan H.Ə.Əliyevin və onun layiqli davamçısı İ.H.Əliyevin rəhbərliyi ilə iqtisadi-siyasi, hərbi və ideoloji sahələrdə daha da güclənmiş, beynəlxalq aləmdə öz yerini tuta bilmişdir. Məhz bunun nəticəsidir ki, Azərbaycan xalqı, Müzəffər Ordumuz, Ali Baş Komandan, prezident İlham Əliyevin başçılığı altında cəmi 44 gün ərzində mənfur düşməni darmadağın edərək 30 illik işğal faktına son qoydu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə düçar olan düşmən 10 noyabr 2020-ci il tarixli Rusiya-Azərbaycan-Ermənistan bəyanatına imza ataraq, məğlubiyyətini rəsmən etiraf etmişdir.

Təqdim olunmuş "Azərbaycanın İrəvan bölgəsi XVII əsrin sonu-XIX əsrin ortalarında" adlı dissertasiya Azərbaycanın tərkib hissəsi olan İrəvan bölgəsinin tarixinin araşdırılmasına həsr edilmişdir. İrəvan bölgəsinin zəngin, çox mürəkkəb və ziddiyyətlərlə dolu bu dövr tarixinin araşdırılması son dərəcə əhəmiyyətli və aktual məsələlərdən biridir. Bəhs etdiyimiz dövr İrəvan bölgəsinin tarixinin ayrıca mövzu kimi öyrənilməsi və tədqiq edilməsi zəruliliyi bugünkü Azərbaycan dövlətinin düşdüyü hərbi-siyasi vəziyyətlə də əlaqədar olaraq çox əhəmiyyətlidir.

Dissertasiya İrəvan bölgəsinin siyasi-iqtisadi tarixini, tarixi coğrafiyasını, əhalinin etnik, say və dini tərkibini və mədəni həyatını

qərəzsiz, obyektiv tədqiqinə həsr edilmişdir. Qeyd etmək lazımdır ki, son dövrlərdə İrəvan xanlığının siyasi- iqtisadi və mədəni həyatına dair əsərlər meydana çıxsa da, bəhs etdiyimiz tarixi dövr indiyədək xüsusi tədqiqat obyekti olmamışdır.

İrəvan bölgəsi tarixi ilə bağlı yazılan əsərləri bir neçə qrupa bölmək olar. **Birinci qrupa** Oktyabr çevrilişinə qədərki topluda nəşr olunmuş məlumatlar, rus qafqazşünaslarından S.B.Bronevskinin, P.Q.Butkovun, N.F.Dubrovinin, V.A.Pottonun, S.N.Qlinkanın, N.N.Şavrovun, V.N.İvanenkonun, M.Vladıkinin, S.A.Yegiazarovun, V.L.Veliçkonun, S.Esadzenin, P.İ.Kovalevskinin və digərlərinin əsərləri[1] daxildir. Bu əsərlərdə əsasən İrəvan xanlığının işğalaqədər

---

[1]Броневский, С.Б. Новейшие географические и исторические известия о Кавказе: [в 2 ч.] / С.Б. Броневский. -Москва: в типографии С.Селивановскаго, ч.1. -1823.; Бутков, П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г.г. [в 3-х томах] / П.Г.Бутков,-СПб: Императорской Академии Наук,-т.1.-1869.; Бутков, П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г.г. [В 3-х томах] / П.Г.Бутков._СПб: Императорской Академии Наук,-т.2.-1869.; Дубровин, Н. Закавказье от 1803-1806 года / Н.Дубровин.- СПб: Департамента уделов, -1866.; Дубровин, Н. Георгий XIII- последний царь Грузии и присоединение ея к России / Н.Дубровин.- СПб: -1867.; Дубровин, Н. Тысяча восемьсот второй год в Грузии // Вестник Европы.-СПб:-1868. №3; Дубровин, Н. История войны и владычества русских на Кавказе:[в 6-и томах] / Н.Дубровин,-СПб: Департамента уделов.-т.1, книга 2, -1871.; Дубровин, Н. История войны и владычества русских на Кавказе: [в 6-и томах] / Н.Дубровин,-СПб: Типография И.П.Скороходова.-т.II, -1886.; Дубровин, Н. История войны и владычества русских на Кавказе: [в 6-и томах] / Н.Дубровин,-СПб: Типография И.П.Скороходова.-т.III, -1886.; Дубровин, Н. История войны и владычества русских на Кавказе: [в 6-и томах] / Н.Дубровин,-СПб: Издания В.А.Березовского.- т.V, -1888.; Дубровин, Н. История войны и владычества русских на Кавказе: [в 6-и томах] / Н.Дубровин,-СПб: Издания В.А.Березовского.- т.VI, -1888.; Потто, В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях: [в 5-и томах] / В.Потто,-СПб: Типография Тренке и Фюсно, - т.3, -1886.; Потто, В. Утверждение русского владычества на Кавказе: [в 4 томах] / В.Потто, -Тифлис: Типография Я.И.Либермана.-т.1.-1901.; Потто, В. Утверждение русского владычества на Кавказе: [в 4 томах] / В.Потто, -Тифлис: Типография Я.И.Либермана.-т.2.-1902.; Глинка, С.Н. Описание переселения армян азербайджанских в пределы России / С.Н.Глинка.- Баку: Элм. -1990.; Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам / Н.Н.Шавров.- Баку: Элм. -1990.; Гражданское управление Закавказьем от присоединения Грузии до наместничество Великого князя Михаила Николаевича (Исторический очерк)

və işğaldan sonra siyasi-iqtisadi tarixi, təbii-coğrafi şəraiti, inzibati-ərazi bölgüsü, əhalinin etnik, say və dini tərkibi, ermənilərin bu bölgəyə köçürülməsi məsələləri, mədəni həyatı haqqında zəngin faktlar toplanmışdır.

Tədqiqata cəlb edilmiş tarixi əsərlərin **ikinci qrupuna** Azərbaycan Xalq Cumhuriyyətində məsul vəzifələrdə işləmiş ziyalıların- M.Vəlilinin (Baharlı), R.İsmayılovun, C.Zeynaloğlunun əsərləri [2] daxildir. Bu əsərlər Azərbaycan tarixinə aid ümümiləşdirilmiş əsərlərdir. Bu əsərlər sovet dövründə nəşr edilməsinə baxmayaraq, sovet ideologiyasından kənar, milli ruhda yazılmış, burada ayrı-ayrı Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının siyasi, iqtisadi tarixi, əhalisinin say tərkibi, ticarəti, vergi və mükəlləfiyyəti haqqında xeyli məlumatlar toplanmışdır

Dissertasiyaya cəlb edilmiş əsərlərin **üçüncü qrupunu** sovet tarixşünaslığına aid müxtəlif tədqiqat əsərləri təşkil edir. Bu əsərlərə baxdıqda görmək olar ki, İrəvan bölgəsinin tarixi tamamilə heç bir qaynağa əsaslanmadan saxtalaşdırılmışdır. Sovet tarixçilərindən İ.P.Petruşevskinin, A.Ş.Milmanın, O.P.Markovanın və H.İbrahimbəylinin əsərlərində [3] İrəvan xanlığının siyasi, sosial-

---

/Составил В.Н.Иваненко. - Тифлис: Типография Лорис-Меликова. -1901.; Владыкин, М. Путеводитель и собеседник в путешествии по Кавказу / М.Владыкин. - Москва: -1874..; Егиазаров, С.А. Исследование по истории учреждений в Закавказье: [в 2-х томах] / С.А.Егиазаров. - Казанъ:- т.2. -1891.; Величко, В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы / В.Л.Величко. - Баку: Элм. -1990.; Историческая записка об управлении Кавказом: [в 2-х томах] / Сос. С.Эсадзе. – т.1. -Тифлис: Типография Гуттенберг. -1907; Ковалевский, П.И. Кавказ [в 2 томах] / П.И.Коволенский. - СПб: - 2.-1915.; Ковалевский, П.И. Завоевание Кавказа Россией (исторический очерк) / П.И.Коволенский.- СПб: -1913.

[2] Vəlili, M. Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat / M.Vəlili. - Bakı: Azərnəşr. -1993.; Zeynaloğlu, C. Müxtəsər Azərbaycan tarixi / C.Zeynaloğlu. - Bakı: Oğuz eli. -1992.; İsmayılov, R. Azərbaycan tarixi / R.İsmayılov.- Bakı: Azərnəşr. -1993.

[3] Петрушевский, И.П. К вопросу об иммунитете в Азербайджане в XVII-XVIII вв. // Москва-Ленинград: Исторический сборник, -1935, № 4,- с. 35-72; Петрушевский И.П. Азербайджанские ханство во второй половине XVIII в. НАИИ НАНА, фонд 1, опись 1, дело №779; Петрушевский, И.П. Очерки по истории феодальных отношения в Азербайджане и Армении XVI- начале XIX

iqtisadi vəziyyətinə, rus müstəmləkə idarəetmə mexanizminin forma və üsullarına toxunulmuşdur.

Mövzunun tədqiqində erməni müəlliflərinin əsərlərindən də istifadə olunmuşdur. Belə tarixçilərdən V.R.Qriqoryanın, A.R.İoannesyanın, Parsamyanın, V.Rştuninin, B.M.Arutunyanın, S.P.Ağayanın və T.X.Akopyanın əsərlərini[14] qeyd etmək olar. Lakin erməni tarixçiləri birmənalı surətdə İrəvan bölgəsinin siyasi və sosial-iqtisadi tarixini Ermənistan tarixinin bir hissəsi kimi qələmə almış, heç bir tarixi mənbəyə əsaslanmadan İrəvan xanlığını Ararat ölkəsi kimi təqdim etmiş, yer, çay və göl adlarını erməniləşdirmiş, etnik cəhətdən ermənilərin üstünlük təşkil etdiyini, İrəvan şəhərinin guya erməni azadlıq hərəkatının mərkəzi olması göstərmiş, Üçmiəzzin kilsəsinin, bəzi erməni nümayəndələrinin fəaliyyətini şişirtmiş, İrəvan hakimlərinin hakimiyyətini fars hakimiyyəti kimi təqdim etmişdilər.

İrəvan xanlığının tarixinin saxtalaşdırılması ümumiləşdirici əsərdən də yan keçməmişdir. «SSRİ tarixinin qısa xülasəsi», «Erməni xalqının tarixi» adlı əsərlərdə[5] İrəvan xanlığının tarixindən

---

вв. / И.П.Петрушевский. - Ленинград: ЛГУ.- 1949.; Маркова, О.П. Россия, Закавказье и международные отношения в XVIII веке / О.П.Маркова. - Москва: Наука. -1966; Ибрагимбейли, Х. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории) / Х.Ибрагимбейли.- Москва: Наука.-1969.

[4] Qriqoryan, V.R. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800-ci illər) (erməni dilindən tərcümə edən Sərlan Həsənov) // AMEA TİEA: f.127, inv.1, iş 1, 118 s.; Иоаннисян, А.Р. Иосиф Емин / А.Р.Иоаннисян.- Ереван: Ериванского госуд-го Уни-та.-1945; Иоаннисян, А.Р. Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия / А.Р.Иоаннисян. -Ереван: Ериванского госуд-го Уни-та. -1947; Парсамян, В.А. История армянского народа. 1801-1900 г.г. [в 2 томах] / В.А.Парсамян.- Ереван: Айастан.- т.1.- 1972; Рштуни, В. Крестьянская реформа в Армении в 1870 г. / В.Рштуни. -Ереван: Академии наук Армянской ССР. -1947; Арутюнян, Б.М. Крупное монастырское хозяйство в Армении в XVII- XVIII вв. / Б.М. Арутюнян. -Ереван: АРМФАН. -1940; Агаян, Ц.П. Крестьянская реформа в Азербайджане в 1870 году / Ц.П.Агаян.- Баку: АН Азерб. ССР. -1956; Акопян, Т.Х. Очерк истории Еревана / Т.Х.Акопян. - Ереван: Ереванского Универ-та. -1977.

[5] Очерки истории СССР, XVIII в. вторая половина / Под. ред. Б.Д.Греков. - Москва: АН СССР. -1956; История армянского народа, с древнейших времен до наших дней / Под. ред. М.Г. Нерсисяна. - Ереван: Ереванского Универ-та. -1980.

çox Üçmiəzzin kilsəsinin tarixinə toxunulmuş, ayrı-ayrı erməni xadimlərinin casusluq və mədəni fəaliyyətindən bəhs edilmiş, əhalinin əksəriyyətini təşkil edən Azərbaycan türklərinin fəaliyyəti kölgədə qalmış və Rusiya dövlətinə cəsusluq edən ayrı-ayrı erməni xadimlərinin fəaliyyəti isə həddən artıq şişirdilmişdir.

Mövzumuzla bağlı bəzi məsələlərə gürcü sovet tarixçilərinin əsərlərində və dərsliklərində də rast gəlmək mümkündür. Belə tarixçilərdən G.Kikodzeni, Q.Q.Payçadzeni və 1946-cı və 1962-ci illərdə nəşr edilmiş «Gürcüstan tarixi» adlı dərslikləri[6] qeyd etmək olar.

Tədqiqat zamanı Azərbaycanın tarixçi alimlərindən H.V.Abdullayevin, Ə.Sumbatzadənin, F.Əliyevin, H.Dəlilinin, S.Məmmədovun, G.Məmmədovanın, C.Mustafayevin əsərlərindən[7] də istifadə edilmişdir.

Mövzumuzla bağlı əsərlərin **dördüncü qrupuna** XX əsrin 90-cı illərin əvvəllərində Azərbaycan Respublikası öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra yazılan əsərlər daxildir.

---

[6] Кикодзе, Г. Ираклий второй / Г.Кикодзе. -Тбилиси: Заря Восток. -1945; Пайчадзе, Г.Г. Георгиевский трактат / Г.Г.Пайчадзе. -Тбилиси: Мецниереба. -1983; История Грузии с древнейших времен до начала XIX века. Учебник / Под ред. С. Джанашия. -Тбилиси: Государственного Из-во Грузинской ССР. - 1946; История Грузии с древнейших времен до 60-х годов XIX века. Учебник / Под ред. Н.А.Бердзенишвили. -Тбилиси: Учебно-педагогической литературы. -1962.

[7] Абдуллаев, Г.Б. Азербайджан в XVIII веке и во взаимоотношениях его с Росси-ей / Г.В.Абдуллаев. -Баку: Изд-во Акад. Наук Азерб. ССР. -1965; Сумбатзаде, А.С. Азербайджанцы- этногенез и формирование народа / А.С.Сумбатзаде. -Баку: Элм. -1990; Алиев, Ф.М. Антииранские выступления и борьба против ту-рецкой оккупации в Азербайджане в первой половине XVIII века / Ф.М.Алиев. -Баку: Элм. -1975; Dəlili, H. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında) / H.Dəlili. -Bakı: Elm. -1979; Dəlili, H.Ə. Fətəli xan Əfşarın Azərbaycan dövləti yaratmaq təşəbbüsü (XVIII əsrin 50-60-cı illəri) // Azərb. SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. -1975, №.1, -s.40-48; Мамедов, С.А. Азербайджан по источникам XV- первой половины XVIII вв. / С.А.Мамедов. -Баку: Элм. -1993; Мамедова, Г.О. Русские консулы об Азербайджане (20-60 гг. XVIII в.) / Г.О.Мамедова. -Баку: Элм. -1889; Мамедова Г.О. Походе В.Зубова в Азербайджан в 1796 г. / Г.О.Мамедова. -Баку: Элм. -2003; Мустафаев, Д.М. Северные ханства Азербайджан и Россия (конец XVIII-начало XIX вв.) / Д.М.Мустафаев. -Баку: Элм. -1989.

Bu əsərlərdə İrəvan xanlığının siyasi, iqtisadi və mədəni həyatına dair xeyli materiallar toplanmışdır.

Müstəqillik dövründə tarixçi alimlərimizdən M.İsmayılovun F.Əliyevlə birlikdə yazdıqları məqalə və F.Əliyevin U.Həsənovla birlikdə yazdıqları monoqrafiya [8] sonralar İrəvan xanlığı tarixi haqqında yazılacaq əsərlər üçün bir örnəkdir. Məqalə və monoqrafiyada İrəvan xanlığının siyasi, ictimai-iqtisadi vəziyyəti, inzibati-ərazi bölgüsü, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər kimi məsələlər öz əksini tapmışdır.

Mövzunun tədqiqində V.Umudlunun, M.Süleymanovun və N.Mustafayevanın əsərlərindən[9] də istifadə edilmişdir.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitunun 2009-cu ildə nəşr etdirdiyi tədqiqat əsərində[12] İrəvan xanlığının siyasi-iqtisadi, mədəni tarixini, əhalinin say, etnik və dini tərkibi, ermənilərin qonşu ölkələrdən İrəvan xanlığına köçürülmə məsələləri ətraflı işıqlandırılmışdır.

Tədqiqat işində T.T.Mustafazadənin əsərlərindən [10] də geniş istifadə edilmişdir. Bu əsərlərdə Osmanlı dövlətinin Azərbaycan xanlıqları, xüsüsən də İrəvan xanlığı ilə bağlı siyasi münasibətlərini, İrəvan xanlığının siyasi və iqtisadi tarixini, digər Azərbaycan xanlıqları ilə, Qacar, Rusiya və Osmanlı dövlətləri ilə siyasi münasibətlərini, birinci və ikinci İrəvan yürüşlərini izləmək mümkündür.

Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələrinə

---

[8] İsmayılov, M, Əliyev F. İrəvan xanlığı // Azərbaycan. -1991, 10 aprel. – s.2-3; 11 aprel.- s.4; Əliyev, F. İrəvan xanlığı / F.Əliyev, U.Həsənov. -Bakı: Azərnəşr. -1997.

[9] Umudlu, V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828) / V.Umudlu. -Bakı: Elm. - 2004; Süleymanov, M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən / M.süleymanov.- Bakı: Hərbi nəşriyyat. -1997; Mustafayeva, N. Cənubi Azərbaycan xanlıqları / N.Mustafayeva. - Bakı: Azərnəşr. - 1995.

[10] Mustafazadə, T. XVIII yüzillik- XIX yüzilliyin əvvəllərində Osmanlı- Azərbaycan münasibətləri / T.Mustafazadə. -Bakı: Elm. -2002; Mustafazadə, T. Ümumi tarix: [4 cilddə] / T.Mustafazadə. -Bakı: Elm, -c.3. -1997; Mustafazadə, T. Azərbaycan xanlıqlarının qısa tarixi. Dərslik. / T. Mustafazadə. - Bakı: Victori. 2011; Musrafazadə, T. Azərbaycan-Rusiya münasibətləri (XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində) / T.Mustafazadə. - Bakı: Şərq-Qərb. -2013.

G.Nəcəflinin əsərində [11] də toxunulmuşdur. Osmanlı mənbələri əsasında yazılmış əsərdə İrəvan xanlığının siyasi vəziyyəti, xanlığın Kartli-Kaxetiya, Osmanlı Türkiyəsi, Rusiya, Qacar dövlətləri ilə münasibətlərinə dair maraqlı faktlar aşkar edilmişdir. Onun digər əsəri isə ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq cəhdlərinə toxunulmuşdur. Müəllif zəngin arxiv materialları əsasında ermənilərin bu cəhdini obyektiv şəkildə işıqlandırmışdır.

Son dövrlərdə Azərbaycan tarixşünaslığında tarixi coğrafiya məsələsinə diqqət artmışdır. V.Piriyevin, T.İsmayılın əsərlərində [12] ümumi Azərbaycanın tarixi coğrafiyasınadan bəhs edilərkən İrəvan bölgəsinə də qısaca toxunulmuşdur.

Dissertasiyanın tədqiqində Z.Hacıyevanın əsərlərindən [13] də istifadə edilmişdir. Əsərdə İrəvan xanlığı ilə bağlı yazılmış əsərlər şərh olunmuş, Azərbaycan, erməni, rus, gürcü, İran tarixşünaslığında yazılmış əsərlər təhlil edilmişdir. Onun digər əsəri[3] erməni mənşəli ABŞ tarixçisi C.Burnutyanın əsərinin ixtisarla tərcüməsi verilmiş, kitabına tənqidi münasibət bildirilmişdir.

Mövzumuz üçün N.R.Gözəlovanın məqalələrindən[14] də istifadə edilmişdir. Müəllifin bu məqalələrdə İrəvan xanlığının siyasi tarixi, əhalinin etnik, say tərkibinə həsr etdiyi məsələlər dissertasiya üçün xüsusilə əhəmiyyətlidir.

Mövzunun tədqiqində son dövrlərdə nəşr olunmuş yeddicildlik

---

[11] Nəcəfli, G. Azərbaycan xanlıqlarının Osmanlı dövlətilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı) / G.Nəcəfli. -Bakı: Nurlan. -2002.

[12]Piriyev, V. Azərbaycanın tarixi coğrafiyası / V.Priyev. -Bakı: Araz. -2002; Исмайыл Т. Историческая география Азербайджана в XVII-XVIII вв. / Т.Исмайыл. – Баку: Кита баламı. -2006.

[13] Hacıyeva, Z. İrəvan xanlığının tarixşünaslığı / Z.Hacıyeva. - Bakı: Çaşıoğlu. -2012; Hacıyeva, Z. Təkrarlanan tarix-təkrarlanan şərhlər "İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828" / Z.Hacıyeva. - Bakı: Şərq-Qərb. -2011.

[14] Гезалова, Н. Исследование вопроса об изменении этнодемографического облика Ireванского ханства (на основе данных англоязычной историографии) // Баку: Известия Н.А.Н. серия история, философия и права, -2007. №8, -с.118-127; Гезалова, Н. О последнем Иреванском ханеХусейн Гули хане Гаджаре // Баку: Известия НАН, серия история, философия и права, -2009. №7, - с. 61-72; Гезалова, Н. Вопросы истории Азербайджана XVIII в. / Н.Гезалова. - Москва: Ирис Групп. -2010.

Azərbaycan tarixinin üçüncü və dördüncü cildlərindən[15] də istifadə olunmuşdur. Bu ümumiləşmiş əsərlərdə Azərbaycanın ayrı-ayrı xanlıqları ilə bərabər, İrəvan bölgəsinin siyasi, ictimai-iqtisadi, mədəni həyatını əks etdirən məsələlərə də toxunulmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi, İrəvan bölgəsinin XVII əsrin sonları-XIX əsrin ortalarında tarixi əsas göstərilmişdir. Məhz bu baxımdan İrəvan bölgəsinin tarixi coğrafiyası, iqtisadi həyatının müxtəlif sahələri-kənd təsərrüfatı, torpaq mülkiyyət formaları, vergi və mükəllfiyyətlər, sənətkarlıq və ticatət, İrəvan hakimlərinin daxili və xarici siyasəti, İrəvanı Azərbaycandan qoparmaq üçün müxtəlif dövlətlərin planları, çar Rusiyasının Azərbaycanı, o cümlədən İrəvan bölgəsini işğal etmək üçün planları, işğaldan sonra bu bölgəni Azərbaycnadan qoparmaq üçün aparılan inzibati-ərazi islahatları və ermənilərin köçürülməsi kimi məsələlər tədqiqatın predmeti seçilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasında əsas məqsəd Azərbaycanın İrəvan bölgəsinin XVII əsrin sonları- XIX əsrin ortalarında siyasi-iqtisadi və mədəni tarixini, tarixi coğrafiyasını və əhalinin say, etnik və sosial tərkibini araşdırmaqdan ibarətdir. Araşdırılan problemin aktuallığını nəzərə alaraq aşağıdakı vəzifələri həll etməyə çalışmışıq:

-qarşıya qoyulan məsələlərin səviyyəsini müəyyənləşdirmək və təhlilini vermək;

-İlk növbədə İrəvan bölgəsini Ermənistan ərazisi kimi qələmə verən erməni müəlliflərinin və bəzi əcnəbi tarixçilərinin iddialarının əsassızlığını arxiv materialları və yazılı mənbələr əsasında sübut etmək;

**-**İrəvan bölgəsinin Azərbaycan tarixində siyasi mövqeyini müəyyənləşdirmək;

-İrəvan bölgəsinin bəhs edilən dövr çərçivəsində siyasi-iqtisadi və mədəni tarixini işıqlandırmaq;

-İrəvan bölgəsinin siyasi sərhədlərinə və əhalinin say tərkibinə

---

[15] Azərbaycan tarixi. Yeddi cilddə. Cild 3 (XIII-XVIII əsrlər) / məs. red. Oqtay Əfəndiyev. - Bakı: Elm, -1999;  Azərbaycan tarixi: Yeddi cilddə. Cild 4 (XIX əsr) / məs. red. M.Ə.İsmayılov. - Bakı: Elm, - 2000.

təsir göstərən müxtəlif amilləri aydınlaşdırmaq;

-İrəvan bölgəsinin siyasi sərhədlərini, inzibati-ərazi bölgüsünü, idarəçilik sistemini öyrənmək;

-İrəvan bölgə əhalisinin bəhs etdiyimiz dövr çərçivəsində arxiv sənədləri əsasında etnik cəhətdən Azərbaycan türklərinin çoxluq təşkil eməsini sübut etmək;

-İrəvan bölgəsinin şəhər əhalisinin sayını, əhalinin məşğulluq məsələlərini araşdırmaq;

-İrəvan bölgəsinin kənd məskənlərinin və əhalisinin sayını dəqiqləşdirmək;

-İrəvan bölgə əhalisinin sosial tərkibini araşdırmaq və ayrı-ayrı silkin sayını göstərmək;

-İrəvan bölgəsi mədəniyyətinin Azərbaycan mədəniyyətinin tərkib hisəssi olmasını sübut etmək.

**Tədqiqat metodları.** Dissertasiyanın aktuallığını nəzərə alaraq tədqiqatın əsas probleminin həlli ilə bağlı olan məsələlər araşdırılarkən tarixilik, obyektiv tarixi materiallara istinad, məntiqi əsaslandırma, tənqidi yanaşma üsulları seçilmişdir. Dissertasiyada istifadə olunmuş mənbələrə tənqidi yanaşmaqla hadisələrin qarşılıqlı təhlilindən və ümumiləşdirilmələrdən istifadə edilmişdir ki, bu da tarixi həqiqətləri üzə çıxarmağa imkan verir. Tədqiq edilən mövzu ilə əlaqədar tarixi hadisələrə aid elmi faktlar verə biləcək arxiv materiallarını öyrənməyə və ümumiləşdirmələr aparmağa səy göstərilmişdir. Bundan əlavə, istifadə olunmuş əsərlərdə obyektiv və subyektiv fikirlərin müəyyən edilməsinə cəhd edilmiş və mənbələrə söykənərək həqiqətin bərpa edilməsinə çalışmışıq.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** 1. XVII əsrin sonu-XIX əsrin ortalarında siyasi vəziyyət və mərkəzi hakimiyyətin həyata keçirdiyi islahatlar nəticəsində İrəvan bölgəsinin ərazisi və inzibati-ərazi bölgüsü dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklər zamanı onun ərazisi gah genişlənmiş, gah da kiçilmişdir. İrəvan bölgəsi əsasən inzibati-ərazi bölgüsü baxımından mahallara, mahallar isə kəndlərə bölünmüşdü. Rusiya işğalından sonra isə İrəvan bölgəsi əyalət , qəza və quberniya kimi fəaliyyət göstərmişdir.

2. Osmanlı və Rusiya işğalı dövrləri istisna olmaqla, İrəvan bölgəsinin idarəçilik sistemi Səfəvilər dövlərinin idarəçilik sistemi

əsasında qurulmuşdur. Bu sistem müstəqil xanlıq dövründə də davam etdirilmiş, fərq yalnız İrəvan xanlığının hakimlərinin müstəqil siyasət yeritməsi idi.

**3.** İrəvan bölgəsində tarixən Azərbaycan türkləri əhalinin böyük əksəriyyətini təşkil etmişdir. Azərbaycan türkləri bölgənin həm dövlət orqanlarında, həm də iqtisadi həyatında əsas rol oynamışdır. Bölgə əhalisinin cüzi hissəsini təşkil edən ermənilər isə yalnız Türkmənçay müqaviləsindən sonra Rusiyanın köməyi ilə Osmanlı və Qacar dövlətlərindən köçürmə nəticəsində çoxluğa nail olmuşdular.

4. İrəvan bölgəsinin əhalisi sosial tərkibinə görə üç əsas qrupa bölünmüşdü: İmtiyazlı ali təbəqə, din xadimləri və vergiverənlər Birinci təbəqəyə xanlar, paşalar, bəylər sultanlar, ağalar, mülkədarlar, məliklər, ikinci təbəqəyə müsəlman və xristian din xadimləri, vergiverənlər təbəqəsinə isə kəndlilər, sənətkarlar, tacirlər və s. daxil olmuşdular.

5. XVII əsrin sonu-XIX əsrin ortalarında İrəvan bölgəsinin iqtisadiyyatında kənd təsərrüfatı, sənətkarlıq, ticarət əsas rol oynamışdır. Bölgədə cərəyan edən siyasi proseslər iqtisadiyyata mənfi təsir göstərsə də, əlverişli ticarət yollarının üzərində yerləşməsi, münbit torpaqların, bol sulu çayların və geniş otlaqların olması iqtisadiyyatın yenidən inkişafına səbəb olmuşdur.

6. İrəvan bölgəsinin mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi olmuşdur. Burada mədəniyyətin müxtəlif sahələri – təhsil, ədəbiyyat, musiqi, rəqs, aşıq sənəti və memarlıq inkişaf etmişdir. Bölgə mədəniyyətin bütün sahələrində Azərbaycan türkləri əvəzsiz rol oynamış və tarixi iz qoymuşdular

7. XVII əsrin sonu-XVIII əsrin əvvəllərində Səfəvilər imperiyasında baş vermiş siyasi və iqtisadi böhran, sonrakı illərdə Rusiya və Osmanlı imperiyalarının Azərbaycana müdaxiləsi, Nadir şah Əfşarın (1736-1747) hakimiyyəti dövründə cərəyan edən siyasi proseslərin məntiqi nəticəsi olaraq İrəvan müstəqil xanlıq kimi (1747-1828) tarix səhnəsinə qədəm qoymuşdur. İrəvan xanlığı müstəqil xarici siyasət yeritmiş, qonşu Azərbaycan xanlıqları, Kartli-Kaxetiya çarlığı, Osmanlı Türkiyəsi, Rusiya və Qacar səltənəti ilə iqtisadi və siyasi əlaqələr saxlamışdır.

8. XIX əsrin əvvəllərində İrəvanda baş vermiş hadisələr, Rusiya və Qacar dövlətlərinin müdaxiləsi, xanlığın Qacar dövlərindən asıllığı, İrəvanda hakimiyyət dəyişikliyi, onun müstəqilliyini sarsıtmışdır. İrəvan xanlığı Qacar dövlətindən asılı olmuşdur.

9. Hüseynqulu xanın hakimiyyətə gəlməsi (1806-1827) İrəvan xanlılında sabitlik yaratmış, onun hakimiyyəti dövründə İrəvan müstəqilliyini bərpa etmişdir. Bölgədə gərgin siyasi proseslər nəticəsində hakimiyyətə gəlməsinə baxmayaraq, Hüseynqulu xan öz idarəçilik bacarığı ilə nəinki onun müstəqilliyini bərpa etmiş, hətta Rusiya işğalına qədər İrəvanı iqtisadi və hərbi cəhətdən güclü xanlığa çevirmişdi.

10. İrəvan xanlığının xarici siyasətində Rusiya imperiyası ilə münasibətlər əsas yerlərdən birini tutmuşdu. Uzun illər kəşfiyyat işi aparan Rusiya XIX əsrin birinci rübündə iki mərhələdə (1804-1813, 1826-1828 –ci illər) Azərbaycanı, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan İrəvan xanlığını işğal etdi. Təəssüf ki, Hüseyqulu xanın başçılığı ilə irəvanlıların apardığı mübarizə xanlığın işğalının qarşısını ala bilmədi.

11. İrəvan xanlığı işğal olunduqdan sonra Rusiya hakimiyyət orqanları bölgəni Azərbaycandan ayırmaq üçün erməniləri köçürmək və Azərbaycan türklərini sıxışdırmaq siyaəti yeritməklə bufer zona yaratmaq qərarına gəlmişdi. Bu müstəmləkəçilik siyasəti bölgənin ümumi mənzərəsində mənfi rol oynamış, gələcəkdə İrəvan ərazisinin Azərbaycandan ayrılmasının təməlini qoymuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya XVII əsrin sonları-XIX əsrin optalarında İrəvan bölgəsinin siyasi-iqtisadi və mədəni tarixini və əhalinin say və etnik tərkibini kompleks şəkildə öyrənən ilk tədqiqat işidir. Bu tədqiqat işi ilk növbədə İrəvan bölgəsinin bəhs edilən dövrdə ermənilərə məxsus olması haqqında olan müddiaya tutarlı cavabdır. Tədqiqatın elmi yeniliyi bir neçə cəhətdən müəyyən olunur:

-Tarixşünaslıqda ilk dəfə olaraq İrəvan bölgəsinin XVII əsrin sonları-XIX əsrin ortalarını əhatə edən bir dövrün yazılmayan siyasi, sosial-iqtisadi və mədəni həyatı öyrənilmişdir;

- Problemin öyrənilməsində xeyli arxiv materiallarından və

elmi ədəbiyyatdan istifadə edilmiş və elmi dövrəyə xeyli materiallar daxil edilmişdir;

-Arxiv sənədlərinə və mənbələrə əsaslanaraq bəhs etdiyimiz dövr çərçivəsində İrəvan bölgəsinin Azərbaycana məxsusluğu sübut edilmişdir;

- İlk dəfə olaraq istər Səfəvi, Osmanlı, Qacar və Rusiya dövlətlərinin tərkibində olduğu, istərsə də müstəqil xanlıq dövründə İrəvan bölgəsinin siyasi sərhədlərinin dəyişilmə məsələləri izlənilmiş, mənbələr əsasında onun sərhədləri müəyyən edilmiş, inzibati-ərazi bölgüsü və idarəçilk sistemi bəhs etdiyimiz dövr ərzində ətraflı öyrənilmişdir;

-İrəvan bölgəsi əhalisinin ayrı-ayrı sosial tərkibi və hakim zümrələrin başlıca rolu müəyyənləşdirilmişdir;

-İlk dəfə olaraq Osmanl imperiyası və Osmanlı paşalıqları ilə İrəvan xanlığının münasibətləri mənbələr əsasında ətraflı işıqlandırılmağa cəhd edilmişdir;

-İlk dəfə olaraq XVIII əsrin 20-ci illərin əvvəllərində Osmanlı qoşunlrının İrəvana yürüşü və onun işğalı fərqli göstərilmişdir;

-İlk dəfə olaraq İrəvan xanlığının hakimlərinin tam siyahısı verilmiş və onların dövründə baş vermiş hadisələr ətraflı işıqlandırılmışdır;

-İlk dəfə olaraq Gülüstan müqaviləsində nəzərdə tutulmuş sərhəd xəttinin təyin edilməsində İrəvan xanlığının yeri və rolu işıqlandırılmışdır;

-İrəvan bölgəsinə daxil olan mahalların və kəndlərin sayı dəqiqləşdirilmişdir;

-Arxiv sənədləri və mənbələri əsasında bölgə əhalisinin say və etnik tərkibi izlənilmişdir;

-İlk dəfə olaraq sonuncu İrəvan sərdarı Hüseyqulu xanın və onun qardaşı Həsən xanın şəxsiyyət və fəaliyyəti ətraflı və hərtərəfli işıqlandırılmışdır;

-Rusiya işğalından sonra çar icra orqanlarının İrəvan bölgəsini Azərbaycandan ayırmaq üçün apardığı siyasətin məqsədi işıqlandırılmışdır;

-İşğaldan sonra Rusiyanın İrəvan bölgəsində həyata keçirdiyi müstəmləkəçilik siyasəti və kəndli hərəkatları ətraflı işıqlan-

dırılmışdır;

-Mənbələr əsasında çarizmin Azərbaycan türklərinə qarşı ögey münasibətin səbəbləri göstərilmiş, bölgənin etnodemoqrafik vəziyyətinin dəyişməsi izlənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işi vətənpərvərlik ruhunun, milli təfəkkürün və milli özünədərketmənin formalaşmasında əhəmiyyətlidir. Dissertasiyada toplanmış materiallar və əldə olunmuş elmi nəticələr monoqrafiyaların və Azərbaycan tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasında istifadə edilə bilər. Digər tərəfdən, dissertasiya ayrı-ayrı bölgələrin tarixi məsələlərinin tədqiqində, həmçinin Azərbaycan tarixinin tədrisində, ali və orta ixtisas məktəblərində dərs vəsaitinin və mühazirələrin hazırlanmasında yardımçı ola bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya Azərbaycan MEA-nın A.A.Bakıxanov adına "Yeni tarix və Azərbaycan xalqına qarşı soyqrımları tarixi" şöbəsində iki dəfə müzakirə edilərək müdafiəyə məsləhət görülmüşdür. İşin əsas məzmunu müəllifin Azərbaycan Respublikasının Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi şərtlər əsasında müxtəlif illərdə nəşr etdirdiyi 28 məqaləsində öz əksini tapmışdır. Mövzunun ayrı-ayrı bölmələri 22 məqalə yerli və 3 məqalə xarici elmi məcmuələrdə, 3 məqalə isə elmi konfrans materiallarında nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Yeni tarix və Azərbaycan xalqına qarşı soyqrımları tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi**. Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı istisna edilməklə) 524834 işarə təşkil edir. Giriş-32417, Birinci fəsil-48983, İkinci fəsil-29230, Üçüncü fəsil-72037, Dördüncü fəsil-119726, Beşinci fəsil-171830, Altıncı fəsil-31787, Nəticə-18824 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində tədqiqat obyekti kimi qoyulmuş mövzunun aktuallığı, onun məqsəd və vəzifələri müəyyən

edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi əsaslandırılmış, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilmiş, dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

"**İrəvan bölgəsinin ərazisi, sərhdləri, inzibati-ərazi bölgüsü və idarəçilik sistemi (XVII əsrin sonu-XIX əsrin ortalarında)**" adlanan birinci fəsil üç bölmədən ibarətdir. Bu fəsildə XVII əsrin sonlarından XIX əsrin ortalarına qədər İrəvan bölgəsinin ərazisi, sərhədləri, inzibati-ərazi bölgüsü və idarəçilik sistemi işıqlandırılmışdır. **"İrəvan bölgəsinin ərazisi, sərhədləri"** adlanan birinci yarımfəsildə bəhs etdiyimiz dövr ərzində İrəvan bölgəsinin ərazi və sərhədləri məsələlərinə aydınıq gətirilmişdir. Mənbələrin verdiyi məlumata görə, Azərbaycanın İrəvan bölgəsi Ağrıdağ düzənliyini, Göyçə gölü hövzəsini, Araz çayından cənuba və cənub-qərbə uzanan bəzi əraziləri əhatə etmişdir. Lakin Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan ərazisi də bəhs etdiyimiz dövr ərzində siyasi vəziyyətlə əlaqədar olaraq, habelə şah və sultanların apardığı inzibati-ərazi islahatları nəticəsində genişlənmiş və yaxud kiçilmişdi [16] . İrəvan bölgəsinin ərazi itkisi Osmanlı-Səfəvi müharibələrində baş vermişdi. 1639-cu il mayın 17-də bu iki dövlət arasında bağlanmış Qəsri-Şirin müqaviləsindən sonra İrəvan bölgəsinə məxsus Muqazberd qalası və onun ətrafı Osmanlı hakimiyyəti altında qalmışdı[17]. XVIII əsrin birinci yarısında müxtəlif illərdə aparılmış inzibati-ərazi islahatları nəticəsində İrəvan bölgəsində tez-tez ərazi dəyişikliyi baş vermişdir. Məsələn, Osmanlı dövlətinin apardığı inzibati ərazi islahatları nəticəsində Naxçıvan bölgəsinin bəzi əraziləri, Maku sultanlığı İrəvan əyalətinin tərkibində olmuşdu[18], Nadir şah Əfşarın (1736-1747) hakimiyyəti dövründə isə

---

[16] Бурнашев, С.Д. Описание областей Адребижанских в Персии и их политического состояния / С.Д.Бурнашев. -Курск: - 1793, с.25-26.

[17] Челеби, Э. Книга путешествия / Э.Челаби – Москва: Наука.- в.2. - 1983; Qarayev E. İrəvan bölgəsinin ərazisi, sərhədləri (XVII əsrin sonu-XIX əsrin ortalarında) // -Bakı: Pedaqoji Universitet Xəbərləri, - 2014. №2, - s.126.

[18] İrəvan əyalətinin icmal dəftəri / Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. Məmmədov N (Qaramanlı).- Bakı: Elm. - 1996.- s.8-9.

onun ərazisi xeyli kiçilmişdi[19]. Mənbələrin verdiyi məlumata görə İrəvan xanlığına məxsus Göyçə mahalının Göyçə gölündən Tərtər çayına qədər olan əraziləri qarabağlı Pənahəli xan (1748-1763) ələ keçirilərək Qarabağ xanlığına birləşdirilmişdir[20].

Lakin buna baxmayaraq müstəqil xanlıq dövründə İrəvanın ərazisi xeyli geniş olmuşdu. İ.Şopenin əsərində İrəvan xanlığının 15 mahaldan ibarət olduğu göstərilir. Bu siyahıya vaxtilə İrəvana daxil olan Şörəyel, Pəmbək sultanlıqları daxil edilməmişdir. Ona görə ki, 1802-ci ildən Pəmbək (ərazisi 2150 kv.v), 1805-ci ildən isə Şörəyel (ərazisi 1290 kv.v) sultanlıqları Rusiya tərəfindən işğal olunmuşdu[21]. Əgər bu sultanlıqları xanlığın ərazisinə daxil etsək, XIX əsrin əvvəllərinə qədər İrəvan xanlığının ərazisi təxminən 15 min kv. verstə qədər olmuşdur. İşğaldan sonra 1828-ci il martın 21-də yaradılmış "Erməni vilayəti" keçmiş İrəvan və Naxçıvan xanlıqlarını özündə birləşdirmişdi. Ümumilikdə "Erməni vilayəti"nin ərazisi 24.000 kv. verst olmuşdur[22]. Qeyd etmək lazımdır ki, qondarma "Erməni vilayəti" yaranarkən bu əraziyə Şörəyel və Pəmbək daxil edilməmişdi. Bu iki ərazi yalnız 1849-cu ildə İrəvan quberniyası yarandıqdan sonra yenidən quberniyanın tərkibinə qatılmışdır.

---

[19] Кретаци, А. История о служивщихся с ним событиях и о Надир шахе Персидском / Перевод с арм., на рус. яз. Т.И. Патканова. НАИИ НАНА, фонд №1, опись № 2, дело №.1504, - с.78.

[20] Mirzə Adıgözəl bəy. Qarabağnamə. (Qarabağnamələr: 2 cilddə) /Adıgözəl bəy Mirzə. -Bakı: Yazıçı. – c.1. -1989, s.36; Qarayev, E. İrəvan bölgəsinin ərazisi və sərhədləri (XVII əsrin sonu-XIX əsrin ortalarında) // Bakı: Pedoqoji Universitet Xəbərləri, -2014. №2, -s.127-128.

[21] Копия с рапорта полковника и ковалера Бурнашева от 25 июля 1784 // НАИИ НАНА. Фонд №1, опись №,1, дело №1795 (1), лист – 16-17; Бурнашев С.Д. Описание областей Адребижанских в Персии и их политического состояния., s.17-18; Кавказский сборник [в 32 томах] // под. ред. В.А.Потто. – Тифлис: Издатель Вел. Кн. Михаил Николаевич. -22. -1901. -с.49-51; Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи / И.Шопен. -СПб.: Типография Императорской Акад. Наук. -1852. с.968-974; Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях [в 4 частях]. -СПБ: Типографий департамента внешней политика. – ч.4. -1836, -с.252.

[22] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.353

Fəslin **"İrəvan bölgəsinin inzibati-ərazi bölgüsü"** adlı ikinci yarımfəslində bəhs etdiyimiz dövrdə İrəvan bölgəsində inzibati-ərazi dəyişikliyi izlənilmişdir. İrəvan bölgəsi inzibati-ərazi quruluşu baxımından mahallara (yalnız Osmanlı dövründə nahiyəyə-E.Q.), sultanlıqlara, onlar isə kəndlərə bölünmüşdü. Mahalları adətən mahal rəisləri-mirbölüklər, sultanlıqları sultan, Azərbaycan kəndlərini naib, kəndxuda, erməni kəndlərini isə məlik idarə etmişdir.

XVIII-XIX yüzilliyin əvvəllərində İrəvan bölgəsində ayrı-ayrı illərdə inzibati-ərazi dəyişikliyi keçirilmişdir. 1728-ci il siyahıyaalma nəticəsində Osmanlı dövləti tərəfindən tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nə görə, İrəvan əyalətinin aşağıdakı inzibati-ərazi vahidləri olmuşdur: İrəvan şəhəri, Qırxbulaq, Körpü, Maku, Xinzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri və Şörəyel livası[23]. Bu nahiyə və livasda 1512 kənd qeydə alınmışdır. Bu kəndlərdən 1423-ü əhali yaşayan abad, 89-u isə boş kənd olmuşdur.

Lakin XVIII əsrin 30-cu illərin ortalarında İrəvan bölgəsi geri qaytarıldıqdan sonra Nadir şah Əfşarın (1736-1747) keçirdiyi islahat nəticəsində İrəvan bölgəsi 9 mahaldan- Körpü, Qırxbulaq, Şörəyel, İğdır, Gərni, Dərəçiçək, Göyçə, Abaran, Şirək mahallarından ibarət olmuşdur[24].

Bu vəziyyət İrəvan xanlığının yaranmasına qədər davam etmişdir. Müstəqil xanlıq dövründə İrəvana daxil olan mahalların sayı müxtəlif rəqəmlərlə qeyd edilir. İ.Şopenin məlumatına görə İrəvan xanlığı 1 şəhər və 15 - Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Göyçə, Səədli, Talın, Seyidli–Ağsaqqallı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək mahallarından ibarət olmuşdur. Qeyd edilən bu mahallarda 831 kənd qeydə alınmışdır[25]. Lakin İ.Şopenin gətirdiyi bu məlumat İrəvan xanlığının son dövrlərinə aiddir. Çünki bu inzibati-ərazi bölgüsünə Şörəyel və Pəmbək sultanlıqları daxil edilməmişdir. Digər tərəfdən

---

[23] İrəvan əyalətinin icmal dəftəri, -s.184.

[24] Кретаци, А. История о служивщихся с ним событиях и о Надир шахе Персидском, -с.78.

[25] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.441-448.

Sərdarabad mahalı 1810-cu ildən sonra yaradılmışdır. Mənbələrin verdiyi məlumata görə, XVIII əsrin 90-cı illərin ortalarına qədər Şörəyel sultanlığı da daxil olmaqla İrəvan xanlığının inzibati-ərazi bölgüsü 14-ə çatmışdır. 1795-ci ilin payızında Ağa Məhəmməd xan Qacarın göstərişi ilə Pəmbək sultanlığı da İrəvan hakiminə tabe edilmiş və 1802-ci ilə qədər İrəvan xanlığının tərkibində qalmışdır[26]. Beləliklə, XVIII əsrin 90-cı illərin ortalarından 1802-ci ilə qədər İrəvan xanlığı inzibati-ərazi bölgüsü cəhətdən 1 şəhər 12 mahaldan, 2 sultanlıqdan ibarət olmuşdur.

İrəvan xanlığında ərazi dəyişikliyi bununla bitməmişdi. Belə ki, 1805-ci ildə Şörəyel də Rusiya tərəfindən işğal edilir. Beləliklə, 1805-ci ildən 1810-cu ilə qədər İrəvan xanlığı inzibati-ərazi cəhətdən 14 mahaldan ibarət olmuşdur. 1810-cu ildə Sərdarabad mahalı yaradıldıqdan sonra İrəvanın inzibati-ərazi bölgüsü 15-ə çatmışdır[27].

Rusiya İrəvan xanlığını işğal etdikdən sonra köhnə inzibati-ərazi quruluşunu dəyişmək üçün islahatlar keçirməyə başladı. 1821-ci il martın 21-də çarın fərmanı ilə keçmiş İrəvan və Naxçıvan xanlıqlarını özündə birləşdirən "Erməni vilayəti" yaradıldı[2]. Lakin bu dəyişiklik xanlıq dövrü inzibat-ərazi quruluşunu dəyişmədi. Bu idarəetmə çar hakimiyyəti orqanlarını qane etmədiyindən, 1833-cü il iyunun 23-də "Erməni vilayəti"ndə yeni dəyişiklik keçirildi. Verilmiş qanuna əsasən, İrəvan bölgəsi 4-İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Hər dairəyə bir neçə mahal düşürdü[28].

Cənubi Qafqazın inzibati-ərazi bölgüsü Rusiya hakim dairələrini qane etmədiyindən yenidən bir neçə islahat keçirildi. 1840-cı il aprelin 24-də çar tərəfindən verilən qanuna əsasən, Cənubi Qafqaz iki-mərkəzi Tiflis şəhəri olan Cürcüstan-İmeretiya

---

[26] Дубровин, Н. Георгий XIII- последний царь Грузии и присоединение ея к России, -с.34-43.

[27]Отношение ген. Паскевича к гр. Нессельроде, от 27-го июня 1827 года [АКАК в 13 томах] / Под. ред. А.Берже. -Тифлис: Типография Главного Управления Наместника Кавказского. -т.7. -1878. -с.547.

[28]Полное собрание законов Российской империи // СПб: Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии. -т.4. -1830, -с.138; Кавказский календарь на 1852 г [в 72 томах]. -Тифлис: Издани от канцелярии Кавказского наместника. – т.8. -1851. - с.436.

quberniyasına, mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinə bölündü. İrəvan ayrıca qəza kimi Gürcüstan-İmeretiya quberniyasının inzibati-ərazi bölgüsünə daxil edildi. Lakin bu bölgü də Cənubi Qafqazda sonuncu inzibati-ərazi bölgüsü olmadı. 1849-cu il iyunun 9-da İrəvan quberniyasının yaradılması haqqında qanun verildi. Bu qanuna görə İrəvan, Naxçıvan və Aleksandropol (Gümrü-E.Q.) qəzaları Tiflis quberniyasından ayrılaraq İrəvan quberniyasında birləşdirildi. Quberniyanın mərkəzi İrəvan şəhəri oldu. İnzibati-ərazi cəhətdən İrəvan quberniyası beş-İrəvan, Yenibəyazid, Naxçıvan, Ordubad və Aleksandropol qəzalarına bölündü. Hər bir qəzaya dairələr daxil idi[29].

Dissertasiyanı üçüncü yarımfəsli **"İrəvan bölgəsinin idarəçilik sistemi"** adlanır. Burada bəhs etdiyimiz dövrdə İrəvan bölgəsini idarə edən hakimiyyət strukturları işıqlandırılmışdır. Qeyd etmək lazımdır ki, müstəqil xanlıq dövrü istisna olunmaqla XVII əsrin sonunda-XIX əsrin əvvəllərində İrəvan bölgəsini Səfəvi, Osmanlı, Əfşar və Qacar dövlətlərinin nüfuzlu hakimləri idarə etmişdilər. Lakin onların hakimiyyəti irsi deyildi. Mərkəzi hakimiyyət tərəfindən təyin edilən bu hakimlər bölgənin həm inzibati, həm də hərbi hakimiyyətini öz əllərində cəmləşdirmiş, mərkəzi hakimiyyətə tabe olan mülki məmurlarla əhatə olunmuşdular[30].

Müstəqil xanlıq dövründə isə İrəvanı irsi hakimiyyətə malik xanlar idarə etmişdilər. Xanın yanında məsləhətçi orqan olan divan da fəaliyyət göstərmişdi. Divanda daxili və xarici siyasət məsələləri müzakirə olunurdu [31]. Divanla yanaşı dövlət aparatına müxtəlif sahələrə rəhbərlik edən vəzir, divanbəyi, qalabəyi, eşikağası,

---

[29] Полное собрание законов Российской империи // СПБ: Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии. – т.24. - 1850. – с312.

[30] Петрушевский, И.П. Очерки по истории феодальных отношения в Азербайджане и Армении XVI- начале XIX вв., с.118-119: Qarayev, E. Azərbaycanın İrəvan bölgəsinin idarəçilik sistemi (XVII əsrin sonu-XIX əsrin ortalarında) // -Bakı: Sivilizasiya.-2014. №5.-s.131.

[31] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.451.

xəzinəağası, ambardar, sandıqdar, darğa, kələntər, əsəsbaşı, mirzə və başqaları daxil idi[32].

Rusiya işğalından sonra İrəvan bölgəsini komendant adlanan hərbi generallar idarə etməyə başladı. Komendantların yanında üç nəfərdən ibarət şura və dəftərxana fəaliyyət göstərirdi. Şəhəri idarə etmək üçün polis idarəsi, məhkəmə və xəzinədarlıq yaradıldı. Hər bir dairəni hərbiçi zabit və yaxud mülki məmur idarə etməli, onların köməkçiləri Rusiya hakimiyyət orqanlarına sədaqətlə quluq edən 4 Azərbaycan türkü və 4 erməni olmalı idi[33]. Bu hal İrəvan quberniyası yaranana qədər davam etmişdi. 1849-cu il iyunun 9-da yaranan İrəvan quberniyasına həm hərbi, həm mülki işlərə baxan qubernatorlar rəhbərlik etməyə başladılar. Qubernatorun yanında dəftərxana, hərbi tapşırıqları yerinə yetirən məmurlar dəstəsi fəaliyyət göstərirdi. İrəvan quberniyasının özünün ayrıca məhkəməsi, prokurorluğu və tibb sahəsi vardı[34].

Tədqiqat işinin **"İrəvan bölgəsinin əhalisi (XVII əsrin sonu-XIX əsrin ortalarında)** adlanan II fəsli iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Əhalinin sayı və etnik tərkibi"** adlanır. Bu yarımfəsildə istər şəhər əhalisi, istərsə də kənd əhalisinin sayı göstərilmişdir. Mənbələrdə əhali haqqında rast gəlinən istər ümumi məlumatlarda, istərsə də statistik rəqəmlərdə bölgə əhalisinin böyük faizinin Azərbaycan türklərinin olması vurğulanmışdır. 1728-ci ildə Osmanlı dövləti tərəfindən tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nə görə İrəvan əyalətinin İrəvan şəhərində, 17 nahiyə və livasında 74852 nəfər qeydə alınmışdır. Bunun 45924 nəfəri Azərbaycan türkləri təşkil etmişdir [35]. Xanlıq dövründə əhali

---

[32]Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.451-458.

[33] Полное собрание законов Российской империи // СПБ: Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии. – т.8. – 1834. – с 137-138.

[34] Полное собрание законов Российской империи, -т.24, -с.140-141; Qarayev, E. Azərbaycanın İrəvan bölgəsinin idarəçilik sistemi (XVII əsrin sonu-XIX əsrin ortalarında), -s. 140-141.

[35] İrəvan əyalətinin icmal dəftəri, -s.18-19; Qarayev, E. XVIII-XIX yüzilliyin əvvəllərində İrəvan bölgəsinin əhalisinin say və etnik tərkibi // - Bakı: Hərbi bilik, – 2016. №1. - s.106.

haqqında məlumatları iki qismə bölmək olar. Bəzi məlumatlarda konkret rəqəmlər göstərilməsə də, etnik baxımdan İrəvan xanlığında Azərbaycan türklərinin böyük üstünlüyə malik olması göstərilmişdir[36]. Konkret statistik rəqəmlərə gəldikdə işğal ərəfəsində bir məlumatda İrəvan xanlığında 15800 ailə, bunlardan 12000 ailə Azərbaycan türk, 3800 erməni ailəsi, digər məlumatda 10000 Azərbaycan türk, 3000 erməni, başqa məlumatda isə 9746 Azərbaycan türk, 3452 erməni ailəsi qeydə alınmışdı[37]. Lakin Rusiya-Qacar müharibəsi ilə əlaqədar olar göstərilən rəqəmələr reallığı əks etdirmir. 1829-1832-ci illərdə həyata keçirilən kameral siyahıyaalınmanın təhlilindən belə nəticəyə gəlinmişdir ki, müharibədən əvvəl İrəvan xanlığının əhalisi təxminən 22964 ailə və yaxud 134646 nəfərdən ibarət olmuş, bunlardan 16438 Azərbaycan türk ailəsi (99609 nəfər), 3452 erməni ailəsi (19878 nəfər), 2984 kürd ailəsi (14902 nəfər), 60 qaraçı ailəsi (257 nəfər) olmuşdur.

İşğaldan sonra ermənilərin kütləvi şəkildə Osmanlı və Qacar ərazilərindən İrəvan xanlığına köçürülməsi başlandı. 1828-1832-ci illərdə Oacar dövlətindən İrəvan xanlığına 23568 nəfər, Osmanlı ərazisindən isə 21639 nəfər erməni köşürülmüşdür[38]. Bu köçürülmə nəticəsində bölgənin etnik mənzərəsi dəyişmişdir. 1834-cü il siyahıyaalınmaya görə bütün bölgədə 22336 həyət və 65300 nəfər qeydə alınmışdır. Bunlardan etnik tərkibinə görə 29690 nəfərini Azərbaycan türkləri, 10350 nəfər yerli, 24255 nəfər köçürülmüş erməni, 1000 nəfər kürd və cüzi hissəsini isə qaraçılar təşkil etmişdi[39]. 1849-cu il məlumatına görə isə İrəvan bölgəsində 11594

---

[36] Гильденштейн, И.А. Путешествие по Кавказу в 1770-1773 гг. / И.А.Гильденштейн. -СПб: Петербургское востоковедение.-2002. -с.171; Дубровин, Н. История войны и владычества русских на Кавказе, -т.3, -с.326.

[37] Кавказский сборник, -т.22, -с.26; Зубов, П. Картина Кавказского края, принадлежащего России и сопредельных оному земель [в 4 частях] / П.Зубов. -СПб: Типография Конрада Вингебера. -ч.1. -1834. - с.205; Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.631-634.

[38] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.635-637.

[39] Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, - ч.4, -с.365

Azərbaycan türk ailəsi (57970 nəfər) qeydə alınmışdır[40].

İkinci yarımfəsil **"Əhalinin sosial-silki tərkibi"** adlanır. Araşdırmalardan məlum olmuşdur ki, bölgə əhalisi sosial tərkibinə görə, üç əsas qrupa bölünmüşdü: İmtiyazlı ali təbəqə, din xadimləri və vergiverənlər. Birinci təbəqəyə xanlar, bəylər, sultanlar, ağalar, mülkədarlar, elbəyilər, məliklər daxil idi. İrəvan xanlığında xanlar iki qismə bölünürdü. Birinci qismə xan və yaxud sərdar adı daşıyan hakimlər, ikinci qismə isə şahlar tərəfindən "xan" fəxri adı verilmiş xüsusi şəxslər daxil idi. İkinci qismə daxil olanlar müstəqil hakim olmasalar da, həm vəzifəsi, həm də geniş torpaq sahələri vardı. Onlar varislik hüququna malik deyildilər[41]. Xanlardan sonra ali silkin növbəti pilləsində bəylər dururdular. Bəylər irsi, xidmət müqabilində verilmiş irsi olmayan bəylərə bölünürdülər. Ağa xan ailəsinə daxil olan şəxslərə deyiliri və onlar böyük imtiyazlara malik idilər[42].

Vergiverənlər qrupuna kəndlilər daxil idi. Kəndlilər bəhrəkərlərə, yarıkərlərə və elatlara bölünürdü. Bəhrəkərlərin öz təsərrüfatı və pay torpağı vardı. Yarıkərlər əsasən qaçqın və tüfeyli həyat sürən adamlardan yaranırdı. Hakim belə şəxsləri torpaqla, əmək aləti və toxumla təmin edir, əvəzində onlar məhsulun yarısını xana verirdilər. Rəncbərlərin nə torpağı, nə də əmək aləti vardı. Onlar icarə götürdükləri torpaqlarda çalışır və əvəzində məhsulun $^2/_3$-ni torpaq sahibinə ödəyirdilər. Elatlar isə köçəri və köçmə maldarlıqla məşğul olan tayfaların aşağı təbəqəsi idi. Xanlığın qeyri-nizami silahlı qüvvələrinin əsas hissəsini onlar təşkil etdiklərindən, elatlardan az vergi alınırdı[43].

Rusiya işğalından sonra İrəvan bölgəsində mütləq hakim olan xandan və rus işğalına qarşı mübarizə aparmış xan, bəy və ağalardan

---

[40]Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в [в 2 томах]. - Москва-Ленинград: Изд-во Академии наук СССР. – т.1. – 1936. - с.375.

[41] Бакиханов, А. Сочинения. Записки, письма / А.Бакиханов. -Баку: Элм. -1983. - с.136; Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, -с.137.

[42]Бакиханов, А. Сочинения. Записки, письма, -с.102-103; Рапорт гр. Паскевича к гр. Дибичу, от 19-го января1829 года, -с.494.

[43] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи., -с.987-989.

başqa bütün imtiyazlı təbəqənin hüquqları təxminən əvvəlki kimi qalmaqda idi. Lakin 1846-cı il dekabrın 6-da çar tərəfindən verilmiş reskriptə əsasən bütün imtiyazlı təbəqələrə mülkədar, rəiyyət, rəncbər, nökər və b. isə mülkədar tabesi adı verildi[44]

İrəvan xanlığında din xadimləri xüsusi təbəqə təşkil edirdilər. Müsəlman din xadimləri üç qrupa bölünmüşdülər: 1. Ali ruhanilər; 2. Şəriət məhkəmələrində mülki və cinayət işinə baxanlar; 3. Maarif işində çalışanlar. Birincilərə şeyx-ül-islam, axundlar, əfəndilər, mirzələr, seyidlər, ikinci qrupa qazilər, üçüncülərə isə müdərrislər daxil idi. Xristianlar isə rahiblərə və "ağ ruhanilərə" bölünürdülər[45]. Xalq arasında böyük nüfuz sahibi olduqlarına görə, çar Rusiyası din xadimlərinə toxunmadı və onlar vergi və mükəlləfiyyətlərdən azad olunmuşdular.

**"İrəvan bölgəsinin iqtisadi vəziyyəti (XVII əsrin sonu-XIX əsrin ortalarında)"** adlanan III fəsl üç yarımfəsildən ibarətdir. **"Kənd təsərrüfatı"** adlanan birinci yarımfəsildə İrəvan bölgəsinin iqtisadi həyatında əsas yeri tutan kənd təsərrüfatı, onun ayrı-ayrı sahələri araşdırılmışdır. Bölgədə əkinçilik və maldarlıq kənd təsərrüfatının başlıca sahələri idi. Kənd təsərrüfatında dənli və texniki bitkilər, bağçılıq, meyvəçilik, üzümçülük və bostançılıq əsas yeri tuturdu. Mənbələrə görə, İrəvan bölgəsi Azərbaycanın ən varlı bölgələrindən biri hesab olunurdu[46]. Bəhs etdiyimiz dövrdə dənli bitki istehsalı əkinçiliyin aparıcı sahəsini təşkil etmişdi. Buğda, arpa və çəltik istehsalı daha geniş yayılmışdı. Əvvəlki dövrlər haqqında məlumat olmasa da, müstəqil xanlıq dövründə yerli əhalinin hər il 34.185 xalvar buğda, 11.500 xalvar arpa, Rusiya işğalından sonra 1832-ci ildə "Erməni vilayəti"ndə isə 75.000 xalvar buğda, 10.000

---

[44]Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, -с.105-107.

[45] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи., -с.692-697.

[46] Волынски, П.А. Извлечение из дневника А.П.Волынского. / см. Зевакин Е.И. Азербайджан в начале XVIII в. Журнал посланника Волынского 1715-1718 г.г. / П.А.Волынски. – Баку: Изд. Об-ва обследов и изучения Азерб.ССР, № 8, 1929. - с.11

xalvar arpa əldə edildiyi barədə məlumat vardır[47]. İrəvanda bol çəltiyin yetişdirilməsi haqqında da mənbələrdə məlumatlara rast gəmək olar. İrəvanlılar düyünü özləri istifadə etməklə bərabər, artığını qonşu bölgələrə və dövlətlərə də ixrac edirdilər. Ən keyfiyyətli çəltik Zəngibasar və Körpübasar mahallarında becərilirdi. Müstəqil xanlıq dövründə İrəvanda orta hesabla 18.400 xalvar çəltik yığılmışdı[48].

İrəvan bölgəsinin iqtisadiyyatında ipəkçilik tarixən inkişaf etmiş sahələrdən biri idi. Mənbələrə görə, bölgə başdan-başa tut ağacları ilə zəngin olmuş və onun ticarətində ipək ixracı böyük rol oynamışdı[49].

İrəvan bölgəsinin əhalisi texniki bitkilərdən pambığın və tütün becərilməsi ilə də məşhur olmuşdur. Zəngibasar, Sərdarabad və Sürməli mahalları pambıq becərilməsində əsas yeri tuturdu. Pambıq sahələri il ərzində iki-üç dəfə sumlanır, çiyid torpağa səpildikdən sonra isə malalanır və suvarılırdı. Pambıq qiymətli bitki hesab olunurdu və İrəvan hakimləri onun əkilməsinə ciddi nəzarət edirdilər. Məlumata görə, Hüseynqulu xanın (1806-1827) dövründə əhali hər il orta hesabla 2100 xalvar pambıq, 1836-ci ildə “Erməni vilayəti”ndə 3.000 xalvar pambıq yığılmışdı[50]

İrəvanlılar tütün yetişdirilməsi və tənbəki istehsalı ilə də məşğul olurdular. Bu bitkinin becərilməsi ilə Sürməli mahalının Arhacı kəndinin əhalisi daha çox məşğul olurdu. Müstəqil xanlıq dövründə təkcə bu kənd 40 xalvardan daha çox məhsul əldə

---

[47]Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, -с.280; Qarayev, E. İrəvan bölgəsinin kənd təsəttüfatı (XVII əsrin sonu-XIX əsrin I yarısında) // -Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. – 2014. №2. - s.204.

[48]Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, -с.280; Qarayev, E. İrəvan bölgəsinin kənd təsəttüfatı (XVII əsrin sonu-XIX əsrin I yarısında), -s.204-205.

[49] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.753.

[50] Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, -ч.IV, -с.278-280; Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.744.

etmişdi[51]. Məlumata görə, bütün xanlıqda hər il orta hesabla 60 xalvar tənbəki istehsal edilmişdi[52]. Rusiya işğalından sonra da bu bitkiyə maraq artmışdı. Bu texniki bitkidən gələn gəlirin $^{1}/_{3}$ hissəsi xəzinəyə təhvil verilirdi[53].

Əkinçilikdə müxtəlif kənd təsərrüfatı alətlərindən istifadə edilirdi. İrəvan bölgəsində torpaq kotan və xışla şumlanırdı. Kotan çox ağır olduğundan onunla torpağı şumlamaq çətinliklə başa gəlirdi. Bu işdə 5 adamın  və 14 cütə yaxın kəl və camışın iştirakı vacib idi. Xışla torpağı şumlamaq isə nisbətən asan idi. Xışı 1 və ya 2 kəl dartırdı. Şumlanmış torpaq qollu-budaqlı ağacla malalanırdı. Aran yerlərində isə malalamaq əsasən, səliqə ilə sarınmış çubuqlarla həyata keçirilirdi. Məhsul yığılarkən müxtəlif alətlərdən- taxıl biçinində oraqdan, ot biçinində isə dəryazdan istifadə edilirdi[54]

Kənd təsərrüfatının daha inkişaf etmiş sahələrindən biri də bağçılıq və bostançılıq idi. Bağlar üç qrupa bölünürdü. Birincisi, həyətyanı bağ, yaxud bağça, ikincisi, şəhərətrafı iri bağlar və üçüncüsü, üzüm bağları adlanırdı. Bu meyvə bağlarında alma, şaftalı, ərik, gavalı, alça, gilas, gilənar (albalı), xurma, heyva, əncir, qoz, nar, tut və digər yerli meyvələr yetişdirilirdi. İrəvan müxtəlif üzüm növü ilə məşhur idi.  Üzümdən yüksək keyfiyyətli şərab, doşab (bəhməz) və sirkə hazırlanırdı. Doşab və sirkəni əsasən Azərbaycan türkləri emal edirdilər[55].

Bostançılıq da İrəvan əhalisinin əsas kənd təsərrüfatı məşğuliyyəti sahələrindən biri idi. Bostanlarda müxtəlif növ tərəvəz-göyərtilər, çuğundur, lobya, xiyar, kələm, noxud, yer kökü, xardal,

---

[51] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.745.
[52] Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, -ч.3, -с.280;
[53] Отношение барона Розена к гр. Чернышеву, от 30-го апреля 1836 года, №221 (АКАК в 13 томах) / Под. ред. А.Берже. –Тифлис: Типография Главного Управления Наместника Кавказского. - т.8. – 1881. - с.516; Qarayev, E. İrəvan bölgəsinin kənd təsəttüfatı (XVII əsrin sonu-XIX əsrin I yarısında), -s.205.
[54] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.737-738.
[55]Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.747-752.

badımcan, qarğıdalı, qarpız, yemiş və s. əkilirdi. İrəvan qarpızı və yemişi daha məşhur idi. Bu bostan bitkisinin xunu, ağabəy, qurbanağası, həsənbəy və digər növləri vardı. Yemiş isə dörd -şallax, dostucan, carcar və tutma növü ilə tanınmışdı[56].

Azərbaycanın digər bölgələrində olduğu kimi İrəvan bölgəsinin kənd təsərrüfatında süni suvarmadan geniş istifadə edilirdi. Dağlıq ərazilərdə əsasən dəmyə üsulundan istifadə edilsə də, aran yerlərində süni suvarma geniş yayılmışdı. Suvarma arxlarının əksəriyyəti Səfəvilər dövründən qalmışdır. İrəvan bölgəsinin suvarma suyuna olan təlabatın böyük hissəsini Araz, Zəngi, Qırxbulaq, Arpaçay və digər iri çaylardan çəkilən arx və kanallar ödəyirdi[57]

İrəvan bölgəsində süni suvarma vasitəsi kimi kəhrizlərdən, quyulardan da istifadə edilirdi. Onların həm də əhalinin içməli su tələbatının ödəməsində böyük rolu vardı. XIX əsrin ortalarında yalnız İrəvan şəhərində 196 su quyusu qeydə alınmışdı[58].

Tədqiqat işində İrəvan bölgəsində su sahibliyi, sudan istifadə və suvarmada idarəçilik məsələlərinə də toxunulmuşdur. Əhali arasında suyun bölüşdürülməsinə dövlət tərəfindən təyin olunmuş mirab və onlara tabe olan cuvarlar rəhbərlik edirdi. Mirab bütün mahalların suvarma təsərrüfatının başçısı idi. Miraba tabe olan cuvarlar isə kəndlərdə su sisteminə rəhbərlik edirdi [59]. İrəvan bölgəsində tarixən mövcud olmuş bu inzibati bölgü Rusiya işğalından sonra da bir müddət öz əhəmiyyətini saxlamışdı. Lakin 1848-ci ildə quberniyalar üzrə suvarma təsərrüfatına rəhbərlik etmək üçün yeni inzibati orqan su mühəndisliyi vəzifəsi yaradıldı. Bu orqan 1874-cü ilə qədər cəmi 3 nəfər üzvi olan heyətlə fəaliyyət

---

[56] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.746-747; Сборник материалов для описания местностей и племен Кавказа (в 82 т и 4 доп) // - Тифлис: Изд.во Упр. Кавказ. Учеб. Округа. – 1881. - выпуск 1. -с.28.

[57] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.387-393; Qarayev, E. İrəvan bölgəsinin kənd təsəttüfatı (XVII əsrin sonu-XIX əsrin I yarısında), -s.207-209.

[58]Кавказский календарь на 1852 г., -с.437

[59] Сборник материалов для описания местностей и племен Кавказа, -с.22; Təzkirət əl- mülk / Azərbaycan dilinə tərcümə Ə.Rəhmaninindir /. AMEA, TİEA: fond 102, siyahı 3614, iş 2, -s.143 .

göstərmişdi[60].

İrəvan bölgəsinin kənd təsərrüfatında maldarlıq da böyük rol oynamışdı. Maldarlıq üçün Qırxbulaq, Göyçə, Abaran, Dərəçiçək, Gərnibasar, Vedibasar, Talın, Sürməli, Dərəkənd-Parçenis mahallarında daha əlverişli otlaqlar var idi[61]. Maldarlıqda xırda və iribuynuzlu mal-qara, atçılıq əsas sahələrdən olmuşdu.

İrəvan bölgəsində Göyçə gölündən, Araz, Zəngi, Toxluca, Ağrıca, Adıyaman, Çubuxlu və digər çaylardan çoxlu balıq ovlanırdı. Göyçə gölündə doqquz müxtəlif balıq növü vardı. Buradan ovlanılan balıq növlərindən qızıl alabalıq (forel) və çəki Şərqdə xüsusilə məşhur idı[62].

"Torpaq mülkiyyəti formaları. Vergi və mükəlləfiyyətlər" adlanan ikinci yarımfəsildə bəhs etdiyimiz dövrdə İrəvan bölgəsində torpaq mülkiyyət formaları, vergi və mükəlləfiyyətlər tədqiq olunmuşdur. İrəvanda tarixən torpaq mülkiyyətinin müxtəlif formaları- divan, xass, mülk, vəqf, tyul və camaat torpaqları mövcud olmuşdur [63]. Mənbələrdən məlum olur ki, Rusiya işğalı istisna olmaqla qeyd etdiyimiz dövr ərzində bu torpaq mülkiyyət formalarında heç bir dəyişiklik olmamışdır. Yalnız "divani" müstəqil xanlıq dövründə xan torpaqlarına birləşərək, İrəvan hakimlərinin tam ixtiyarına keçmişdi. Rusiya işğalından sonra isə bu torpaq mülkiyyəti forması xəzinənin sərəncamına verilmişdir[64].

Yarımfəsildə mükafatlandırma, bəxşiş və arpalıq kimi tiyul torpaq sahibliyinin 3 növü müəyyənləşdirilmişdir. Tiyulun mükafatlandırma forması xidmət müqabilində dövlət adamlarına, hərbçilərə, elm və din xadimlərinə hədiyyə ilə, bəxşiş forması əvvəlki tiyul sahibinin xidməti başa çatdıqda və öldükdə geri alınan

---

[60]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края / Тифлис: - т.5. -1888, -с.20-21.

[61] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.523-525.

[62]Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях. - ч.IV, -с.283.

[63] Петрушевский, И.П. Очерки по истории феодальных отношения в Азербайджане и Армении XVI- начале XIX вв., -с.78.

[56] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, -с. 50, -с.100.

torpaqların digər şəxsə verilməsi ilə yaranırdı. Tiyulun «arpalıq» forması isə siyasi vəziyyətlə əlaqədar olaraq qonşu xanlıqlardan İrəvana pənah gətirmiş nüfuzlu şəxslərə müvəqqəti verilmiş torpaq sahəsi idi. Məsələn, bütün Dərələyəz mahalı gürcü şahzadəsi Aleksandra, Sürməli mahalının beş kəndi isə Hüseyn ağa Zilanlıya, bir kənd Süleyman ağa Zilanlıya tiyul-arpalıq verilmişdir. İşğal ərəfəsində İrəvan xanlığında 42, 1839-cu il məlumatına görə isə "Erməni vilayəti"ndə 57 tiyul kəndi olmuşdur[65].

İrəvan bölgəsində əhali müxtəlif vergi və mükəlləfiyyətlər yerinə yetirirdilər. Xanlıq yarananana qədər əhalinin vergi və mükəlləfiyyətlərinin sayı 35-ə çatırdı[1]. Vergilər pulla və yaxud natura ilə alınırdı. Bu vergilərdən bəhrə, üşr, çobanbəyi, çərik, rüsum, təchizat, rəhdar və s. vergiləri, mükəlləfiyyətlərdən isə biyar və əvrəzi qeyd etmək lazımdır. Xanlıq dövründə pulla alınan vergilər iki qrupa bölünürdü: bilavasitə (birbaşa xəzinəyə ödənilən vergilər-E.Q.) və bilvasitə (dolayı yolla ödənilən vergilər-E.Q.). İrəvan xanlığında bilavasitə və bilvasitə pul vergilərindən xəzinəyə ildə 39.709 tümən 2 minaltun 12,5 şahı və yaxud 158.837 gümüş rubl 5 qəpik ümumi gəlir daxil olurdu[66].

İrəvan xanlığında əhalidən pulla alınan vergidən başqa natural şəkildə də vergi alınırdı. Məhsulla alınan əsas vergi malcəhət və yaxud bəhrə (məhsulun $^1/_5$-dən $^1/_3$-i) adlanırdı ki, bundan hər il xəzinəyə dəyəri 305.218 rubl, 51 qəpik olan natural vergi daxil olurdu. Bundan əlavə natural şəkildə ümumi dəyəri 87765 tümən 28 minaltun 64,5 şahı dəyərində digər natural vergi də alınırdı[67].

İrəvan xanlığında istər nəqd pulla, istərsə də natural şəkildə xəzinəyə gələn ümumi gəlirin miqdarı 653.150 rubl təşkil etmişdi.

---

[65]Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.929-941; Qüdsi Məhəmməd Müslüm. İrəvanlı Hüseynəli xanın məktubları, 1789-1791. AMEA TİEA: fond119, siy.7415 (2), iş.7, s.107-108; Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, - с.101.

[66] Qarayev, E. İrəvan xanlığında vergi və mükəlləfiyyətlər //-Bakı: AMEA-nın Xəbərləri (ictimai elmlər seriyası).-2016. №2.-s.138.

[67] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.967-986, -с.1119-1136; Qarayev, E. İrəvan xanlığında vergi və mükəlləfiyyətlər, -s.138-139.

Rusiya işğalından sonra İrəvan bölgəsində vergilərin sayı azaldı. XIX əsrin 30-cu illərin əvvəllərində "Erməni vilayəti"ndən xəzinəyə gələn gəlirin ümumi məbləği 100 mindən 120 min gümüş rubla, 1834-cü ildə 157 min gümüş rubla (83 min gümüş rublu yalnız məhsuldan gələn gəlir idi), 1835-ci ildə isə 215 min gümüş rubla (bu ümumi gəlirin 141,021 min gümüş rublunu məhsuldan gələn gəlir təşkil edirdi) çatdırdı[68]. 1836-cı ildə İrəvan bölgəsində yeni vergi sistemi tətbiq olundu. Bu yeni qaydaya əsasən XIX əsrin 40-cı illərin əvvəllərində statistik məlumata görə yalnız İrəvan qəzasında illik verginin gəliri 169449 rubl 18 qəpik olmuşdur[69].

**III fəslin "Sənətkarlıq və ticarət. Duz hasilatı. Pul, çəki və ölçü vahidləri"** adlanan üçüncü yarımfəslində sənətkarlığın bütün sahələri, daxili və xarici ticarət tədqiq olunmuşdur. Sənətkarlığın əsas sahələrindən biri toxuculuq idi. Hər bir ailənin toxuculuq dəzgahı vardı. İrəvan hakimləri hər bir dəzgahdan bir parça bez vergisi alırdı Bundan əlavə sənərkarlığın boyaqçılıq, gön-dəri emalı, şüşə istehsalı, dulusçuluq, sabunbişirmə, dəmirçilik, bənnalıq, xarratlıq, dülgərlik, rəngsazlıq və b. sahələri inkişaf etmişdi. 1829-1832-ci illər kameral təsvirə görə İrəvan bölgəsində sənətkarlığın 96 (sənətkarlıqla 10124 şəxs qeydə alınmış, bunlardan 2349-u İrəvan şəhərində, 4743-ü isə mahallarda yaşamışdı), XIX əsrin 50-ci illərin əvvəllərində isə 65 sahəsi qeydə alınmışdı[70].

İrəvan bölgəsində ticarət də inkişaf etmişdi. Bəhs etdiyimiz dövrdə bölgə hərbi əməliyyatlar nəticəsində dəfələrlə dağıntıya məruz qalmasına baxmayaraq, əlverişli karvan yollarının qovuşduğu yerdə yerləşməsi ticarətin inkişafına öz təsirini göstərmişdi. İrəvanda xarici ticarət daha güclü inkişaf etmişdi. İrəvan hakimlərinin və nüfuzlu əyanların ticarətə sərmayə qoyması bu sahənin inkişafına

---

[68]Отношение барона Розена к гр. Чернышеву, от 30-го апреля 1836 года, -с.515-516.

[69]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, -с.60.

[70] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.842-853; Qarayev, E. İrəvan bölgəsində sənətkarlıq haqqında //- Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. - 2016, №1. - s.247.

səbəb olmuşdu[71]. İrəvan malları qonşu xanlıq və dövlətlərə ixrac olunurdu. Daxili ticarət bazarlarda və yaxud dükanlarda aparılırdı. Bununla yanaşı sırf ticarət dükanları da vardı. İrəvan şəhəri müxtəlif dövlət və xanlıqlardan gələn tacirlərlə dolu olardı. Daxili bazarın inkişafını şərtləndirən əsas şərtlərdən biri burada karvansaraların bol olması idi. İrəvan bölgəsində şəhər və yol karvansarası olmaqla iki növ karvansara mövcud olmuşdur. Rusiya işğalından sonra İrəvan şəhərində 7, mahallarda isə 5 karvansara qeydə alınmışdı. Şəhərdə bazar ətrafında cəmləşmiş karvansaralar həm mehmanxana, həm də iş adamlarının mallarını satmaq üçün bazar hesab olunurdu. Karvansaraların ətrafında çoxlu dükanlar vardı. İrəvan şəhərində karvansaraların ətrafında 252, airı-ayrı yerlərdə 543, İrəvan qalasında 32, şəhərin Təpəbaşı məhəlləsində 4, Şəhər məhəlləsində 18, Dəmirbulaq məhəlləsində 2 dükan vardı. Bu dükanların ümumi sayı 851-ə çatırdı[72].

İrəvan bölgəsinin iqtisadi həyatında tarixən böyük rol oynayan sahələrdən biri də duz hasilatı idi. Bölgənin ticarətində və ixracatında bu sahə xüsusilə fərqlənmişdi. İrəvan duzu əsasən, Sərdarabad qalasının 30 verst, İrəvan qalasının isə 50 verstliyində, Araz çayının sağ sahilində yerləşən Qulp kəndinin yaxınlığındakı dağdan çıxarılırdı[73]. Qulp duz mədəni Qarabağdan, Kartli-Kaxetiyadan, Osmanlı paşalıqlarından gələn karvanlarla dolu olurdu. Duz hasilatından xəzinəyə xeyli gəlir daxil olurdu. İrəvan hakimi Məhəmməd xanın dövründə (1784-1805) duz hasilatından xəzinəyə ildə 300 tümən gəlir gəlidisə, sonuncu İrəvan hakimi Hüseynqulu

---

[71] Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, -с.284; Qüdsi Məhəmməd Müslüm. İrəvanlı Hüseynəli xanın məktubları, 1789-1791, -s.33 .

[72] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.468-469, -с.878-881; Qarayev, E. İrəvan xanlığında ticarət (XVIII yüzilliyin ikinci yarısı-XIX yüzilliyin birinci qərinəsində) // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. Xəbərlər (ictimai elmlər seriyası). -2016. №1. - s.137.

[73] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи., -с.824; Qarayev, E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında) / E.Qarayev. - Bakı: Mütərcim.-2016. -s.370.

xanın dövründə bu gəlir 1400 tümənə çatmışdı[74]. İşğaldan sonra Rusiya hakim dairələri İrəvan duzuna böyük maraq göstərmişdir. Qulp duz mədəni işğalın ilk günündən xəzinənin ixtiyarına keçmişdi. Yalnız 1832-1836-cı illərdə (4 il-E.Q.) duz hasilatı 24.600 gümüş rubla icarəyə verilmişdi. Sonra xəzinəyə qaytarılan duz mədəni 1840-1850-ci illər arasında müxtəlif miqdarda gəlir gətirmişdi. On il ərzində onun ümumi gəliri 24-50 min gümüş rubl arasında, bir il isə 72 min gümüş rubl, təmiz gəliri isə 14-28 min, iki il isə 53-54 min gümüş rubl olmuşdur. Son üç ildə isə duzun gəliri aşağı düşərək 20-19 min gümüş rubla çatmışdı[75].

1840-cı il aprelin 10-da Cənubi Qafqazda keçirilən inzibati-ərazi islahatına görə, Qulp duz mədəni zavod statusu almış, onun müdir başda olmaqla idarə heyəti yaradılmışdır[76].

İrəvan bölgəsində ticarət əməliyyatlarının gedişində müxtəlif pul, çəki və ölçü vahidlərindən istifadə olunmuşdu. Bəhs etdiyimiz dövrdə əsas pul vahidlərindən İrəvan tümənini, sahibqıran və yaxud minaltunu, pənahabadı, mahmudini, qarapulu, şahını, bistini, realı, Rusiya imperialını, rublunu, Osmanlı darülxliafı, kuruşunu, paranı və s. qeyd etmək olar. Məlumata görə, XIX əsrin 50-ci illərin ortalarında irəvanlılar alqı-satqını yalnız rus qızıl və gümüş pulları ilə aparırdılar[77]. İrəvan bölgəsində Rusiya işğalından əvvəl işlədilən çəki vahidlərindən xalvar, batman, stil, pud, misqal, litr, lider, somar, tackir, kod və s. qeyd etmək olar. Bazarlarda ticarət mallarını çəkmək üçün "əttar" və "mizan" adlandırılan tərəzilərdən istifadə olunmuşdu. "Əttar" kiçik əl tərəzisi idi ki, bununla ərzaq malları, "mizan"la isə ipək və xaricdən gətirilmiş mallar çəkilirdi. Tərəzi daşları icarəyə verilirdi ki, bundan xəzinəyə xeyli miqdarda gəlir gəlirdi. Məsələn, Osmanlı hakimiyyəti dövründə (1724-1735) İrəvan bölgəsində

---

[74] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи., -с.827.

[75] Qarayev, E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında), -s.372-373

[76]Кавказский календарь на 1852 г., -с.497; Полное собрание законов Российской империи. -т.15, -с.62.

[77]Кавказский календарь на 1852 г., -с.286-287 .

mizandan xəzinəyə 420000 axça gəlir daxil olmuşdu[78].

Rusiya işğalından sonra bəzi çəki vahidləri aradan qalxdı. XIX əsrin 50-ci illərin məlumatına görə irəvanlılar yalnız rus çəki daşları ilə bərabər, batman və stildən də istifadə etmişdilər. İrəvanda xan arşını, xalvar, somar, tackir, batman və ağac kimi uzunluq vahidləri olmuşdur. Xalvar, somar və batman əsasən əkin sahələrinin, arşın müxtəlif parçaların, ağac isə uzaq məsafələrin ölçüsündə istifadə edilirdi. XIX əsrin 50-ci illərində müxtəlif parçaların ölçülməsində rus arşını ilə bərabər xan arşını adlanan ədlidən də istifadə edilmişdi. Yeddi ədli on rus arşınına bərabər idi[79].

Tədqiqat işinin **IV fəsli "İrəvan bölgəsində siyasi vəziyyət (XVII əsrin sonu-XVIII əsrdə)"** adlanır və üç yarımfəsildən ibarətdir. **"İrəvan bölgəsi XVII əsrin sonu-XVIII əsrin ortalarında"** adlanan birinci yarımfəslində XVII sonu-XVIII əsrin ortalarında baş vermiş siyasi hadisələr işıqlandırılmışdır. Bu yarımfəsildə Azərbaycan Səfəvilər dövlətində baş vermiş siyasi və iqtisadi böhranın İrəvan bölgəsinə təsiri, Osmanlı müdaxiləsi, Nadir şahın dövründə (1736-1747) İrəvan bölgəsində baş vermiş hadisələr, İrəvan xanlığının yaranması, öz varlığını qorumaq üçün apardığı mübarizə kimi mühüm faktlar öz əksini tapmışdır. Səfəvilər dövlətində baş vermiş böhran İrəvan bölgəsinə böyük təsir göstərmişdi. Ölkədə aclıq və hakimlərin özbaşnalığı hökm sürürdü[80]. Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən Rusiya və Osmanlı dövlətlərinin XVIII əsrin 20-ci illərin əvvəllərində Azərbaycana açıq müdaxiləsi başladı. Nəticədə 1724-cü ildə bağlanmış İstanbul müqaviləsinə əsasən bu iki dövlət Azərbaycanı öz aralarında bölüşdürdü. İrəvan bölgəsi Osmanlı hakimiyyətinə daxil edildi. Bu bölgəni tam öz hakimiyyəti altına keçirmək üçün 1724-cü ilin yayında Osmanlı qoşunları İrəvana yürüşə başladı. Bu yürüş əldə olunmuş sənədlər əsasında yeni səpkidə işıqlandırılmış və İrəvan bölgəsi bu müdaxilədən sonra 1735-ci ilin yayına qədər Osmanlı

---

[78] İrəvan əyalətinin icmal dəftəri, -s.35; Qarayev, E. İrəvan xanlığında ticarət (XVIII yüzilliyin ikinci yarısı-XIX yüzilliyin birinci qərinəsində), -s.138

[79] Кавказский календарь на 1852 г., -с.551 .

[80] Дневник Захария Акулисского, -с.94-127; Канакерци, З. Хроника, с.184-225.

hakimiyyəti altına düşmüşdü[81]. Lakin XVIII əsrin 20-ci illərin əsrin sonu-30-cu illərin əvvəllərində Nadir xan Əfşarın yüksəlişi nəticəsində işğal olunmuş torpaqların geri qaytarılması nəricisində Səfəvilər dövlətinin əvvəlki ərazisi bərpa edildi. 1935-ci ilin yayında İrəvan ərazisində Osmanlı qoşununu məğlub edən Nadir xan bu bölgəni yenidən Səfəvilər dövlətinə geri qaytardı[82]. Böyük imperiya yaradan Nadir şahın (1736-1747) apardığı inzibati-ərazi islahatı nəticəsində İrəvan bölgəsi Azərbaycan əyalətinin tərkibinə daxil edildi. Lakin şahın apardığı fasiləsiz müharibələr, soyğunçu vergi siyasəti xalqı var-yoxdan çıxarırdı. Mənbələrin araşdırılması göstərir ki, şahın hakimiyyətinin son illərində Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən İrəvan bölgəsində əhali üsyan qaldırmışdı. Bu üsyanın gedişində irəvanlılar şahın təyin etdiyi hakimi İrəvandan qovmuş, hətta Nadir şahın əmisi oğlu Əmiraslan xanın başçılığı ilə göndərilmiş qoşununu məğlub etmişdilər[83]. 1747-ci ildə Nadir şah sui-qəsd nəticəsində ölürüldükdən sonra Azərbaycanda İrəvan da daxil olmaqla 20-ə qədər xanlıq yarandı. İrəvan xanlığı Nadir şahın qardaşı oğlu Əmiraslan xana qarşı mübarizə nətincəsində yaranmışdı. Əmiraslan xanın sərkərdəsi olan Mirmehdi xan irəvanlılara qoşularaq İrəvan xanlığının əsasını qoymuşdu. Mirmehdi xan (1747-1752) Azərbaycanın müxtəlif bölgələrinin qoşunu ilə birləşərək Urmiya xanlığına basqın etmiş və onun bəzi ərazilərini tutmuş və xəzinəni

---

[81]Kemani Mustafa ağa. Rəvan fetih- namesi / Bax. Aktepe M.Münir. Osmanlı- İran münasibətləri / İstanbul: 1970, -s.45-70; Mustafazadə, T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri, -s.65-66; Гараев, Э. Занятие крепости Эривань османскими войсками в 1724 г. // Одеса: Науковий Вiсник. – 2018. №4 (256). - с.199-209.

[82]Локкарт, Л. Надир шах / переведено с английского Гезаловой Н.Р. -Баку: Ганун. -2004, -с.109.

[83] Доносение от Рещта от 17-го октября 1747 г // НАИИ НАНА. Фонд №1, опись № 1, дело №7137, лист- 49, 51; Рапорт Копытовского князю Голицыну от 24-го мая 1747 г. // НАИИ НАНА. Фонд №1, опис №1, дело №7195, лист-45-46; Рапорт Копытовского князю Голицыну от 24-го мая 1747 г. // НАИИ НАНА. Фонд №1, опис №1, дело №7195, лист-45-46.

müttəfiqlərlə bölüşdürülmüşdür[84].

Lakin 1749-cu ildə İrəvan xanlığı çox tezliklə Kartli-Kaxetiya çarlığı- Qarabağ xanlığı arasında gedən çox ciddi mübarizə meydanına çevrildi. Bu mübarizədə İrəvan xanlığı qısa müddətdə olsa da Kartli-Kaxetiya çarlığının nominal asıllığına düşdü və bu asıllıq vergi verməklə kifayətlənirdi [85]. Çox keçmədən İrəvanda hakimiyyət dəyişikliyi baş verir. Mirmehdi xanın rəqibi urmiyalı Fətəli xan İrəvan xanlığına hücum edir. Fətəli xan bu yürüşdə Nadir şahın sabiq sərkərdəsi Azad xandan istifadə etmişdi. Azad xanın yürüşü nəticəsində İrəvan xanlığı Fətəli xana tabe olur və İrəvan taxt-tacına Azad xanın yaxın adamı Xəlil xan Özbək (1752-1755) sahib olur[86].

Xəlil xan İrəvanda hakimiyyətdə çox qala bilmir. Onun apardığı siyasət irəvanlıların narazılığına səbəb olur və narazılıq nəticəsində yerli Qacarlar soyundan olan Həsənəli xan Qacar (1755-1759) hakimiyyətə gəlir. Onu isə qardaşı Hüseynəli xan Qacar (1759-1783) əvəz etmişdi[87].

**"XVIII əsrin 60-80-ci illərində İrəvan xanlığında siyasi proseslər"** adlanan ikinci yarımfəsildə İrəvan hakimləri olan Hüseynəli xanın, onun oğlanları Qulaməli xanın (1783-1784) və Məhəmməd xanın (1784-1805) dövründə baş verən hadisələr öz əksini tapmışdır. Bu tarixi dövr ərzində İrəvan xanlığı öz müstəqiliyini qorumaq üçün xarici müdaxiləyə qarşı mübarizə aparmaq məcburiyyətində qalmışdı. Bu xanlığın ən qatı düşməni Kartli-Kaxetiya çarlığı olmuşdur. Rusiyaya arxalanan bu çarlığın İrəvan xanlığında böyük təsiri olmuş, bəzən də irəvanlılar Tiflis sarayına vergi vermək məcburiyyətində qalmışdılar. Lakin İrəvan hakimləri bu nominal asıllıqdan çıxmaq üçün daima mübarizə

---

[84] Армяно-русские отношения во втором тридцатилетии XVIII века: Сборник документов: [в 4 томах] / Под. ред. В.К.Восканяна. -Ериван: Изда-во АН АРМ. ССР. -т.3. -с.203-204.

[85] Армяно-русские отношения во втором тридцатилетии XVIII века, с.241

[86] Ериванци, С.Джамбр, -с.207; Гараев, Э. Из истории отношений Иреванского ханства с Картли-Кахетинским царством // Баку: Азербайджан и Азербайджанцы. – 2010. №1-2. - с. 87.

[87] Ериванци, С. Джамбр, -с.207-208.

aparmış və buna da nail olmuşdular[88]. Mənbələrin araşdırması göstərir ki, İrəvan hakimləri müdaxiləyə məruz qaldıqda Osmanlı sarayına kömək məqsədilə müraciət etmişdilər[89]. Osmanlı sarayı hərbi kömək etməsə də, onun nüfuzu və diplomatik təzyiqləri uzun illər İrəvanı rus-gürcü birliyindən qoruya bilmişdi. Bu yarımfəsildə İrəvan xanlığının qonşu Azərbaycan xanlarından- Xoy, Qarabağ, Naxçıvan xanlıqları, Osmanlı paşalıqlarından Bəyazid, Ərzurum, Ahalsıx, Qars və s. paşalıqları ilə münasibətlərə geniş yer verilmiş, bu münasibətlərin ziddiyyətli olması səbəbləri açıqlanmışdır.

III fəslin üçüncü yarımfəsli **"İrəvan xanlığı XVIII əsrin 90-cı illərində"** adlanır. Bu yarımfəsildə Ağa Məhəmməd şah Qacarın başçılığı ilə Qacar dövlətinə, V.Zubovun başçılığı ilə rus qoşunlarına qarşı mübarizə, Xoy xanlığı ilə münasibətlər öz əksini tapmışdır. İrəvan xanlığının xarici siyasətində Qacar dövlətinə qarşı mübarizə əsas yerlərdən birini tutmuşdu. XVIII əsrin 90-cı illərin əvvəllərində İranda hakimiyyətini möhkəmləndirmiş Ağa Məhəmməd xan Qacar Azərbaycan xanlıqlarını, eyni zamanda İrəvan xanlığını da özünə tabe etmək siyasəti yeridirdi. Bu dövrdən başlayaraq Məhəmməd xan (1784-1805) Qacar təhlükəsinə qarşı mübarizə aparmışdır. 1795-ci ilin yayında Oacar qoşunlarının İrəvan xanlığına hücumu zamanı irəvanlılar güclü müqavimət göstərsələr də, sonda Məhəmməd xan Ağa Məhəmməd şaha tabe olmuş və ildə 8 fund qızıl, 8 min tümən xərac vermək məcburiyyətində qalmışdır[90]. Lakin İrəvan hakimi bu asılıqdan çıxmaq üçün apardığı siyasət Ağa Məhəmməd şahı qəzəbləndirmiş və nəticədə o, həbs edilmişdir.[91] İrəvanda şahın qardaşı Cəfərqulu xan və ondan sonra isə Maku xanı Həsən xan hakimiyyətdə olmuşdur. Lakin Ağa Məhəmməd şah sui-qəsd

---

[88] Рапорт полковника С.Бурнашева М.Н.Монтьеву, 9-го августа 1785 г. // НАИИ НАНА, фонд №1, опись № 1, дело № 1795, -л.243.

[89] Qüdsi, M.M. İrəvanlı Hüseynəli xanın məktubları, 1789-1791, -s.41-44, -s.73, -s.91.

[90] Дубровин, Н. Георгий XIII- последний царь Грузии и присоединение ея к России, -с.13; История армянского народа, с древнейших времен до наших дней, -с.270; Qarayev, E. İrəvan xanlığı Ağa Məhhəmməd şah Qacarın yürüşləri dövründə // - Bakı: Hərbi bilik. – 2013. №6. - s.100.

[91] Хубов, Е. Описание достопамятных происшествий в Армении / Е.Хубов. -СПб: Типография И.Ионесова. -1811. -с.10-11; Qarayev, E. İrəvan xanlığı Ağa Məhhəmməd şah Qacarın yürüşləri dövründə, -s.100.

nəticəsində öldürüldükdən sonra Qacar şahı olmuş Fətəli şahın (1797-1834) əmri ilə Məhəmməd xan dustaqlıqdan azad olmuş, o, yenidən İrəvanda hakimiyyətini bərpa etmişdir. Hakimiyyətini bərpa etmiş Məhəmməd xan Qacar asıllığından qurtarmaq üçün Xoy xanı Cəfərqulu xanla yaxınlaşmış və birlikdə bu təhkükəyə qarşı mübarizə aparmışdılar. Fətəli şah onları cəzəalandırmaq üçün oğlu Abbas Mirzənin başçılığı ilə 7-10 min nəfərlik qoşunu İrəvana göndərmişdir[92]. Lakin bu yürüş baş tutmamış, Qacar dövlətində olan qarışıqlıq nəticəsində Abbas Mirzə geri qayıtmaq məcburiyyətində qalmışdır.

Tədqiqat işinin **"İrəvan xanlığı XIX əsrin birinci yarısında"** adlanan V fəsli beş yarımfəsildən ibarətdir. **"XIX əsrin əvvəllərində İrəvan xanlığının xarici siyasəti"** adlanan birinci yarımfəslində İrəvan xanlığının xarici siyasətinin mahiyyətinə aydınlıq gətirilmişdir. 1799-cu il noyabrın 26-da rus qoşunlarının Tiflisə daxil olması və 1801-ci il yanvarın 18-də I Pavelin Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında manifestinin imzalaması İrəvan xanlığında böyük təşvişə səbəb olmuşdur[93]. Manifestə görə İrəvan xanlığının tərkib hissəsi olan Şörəyel və Pəmbək sultanlıqları da guya Kartli-Kaxetiya çarlığının tərkibi kimi Rusiyaya birləşdirilməli idi. Bu hadisə Şörəyel və Pəmbəkdə böyük narazılığa və üsyana səbəb oldu. Məhəmməd xanın müdaxiləsindən sonra Şörəyeldə İrəvan xanlığının yenidən hakimiyyəti bərpa edildi. Lakin İrəvan hakiminin Pəmbəkdə hakimiyyətini bərpa etmək mümkün olmadı. İlk əvvəl Pəmbək sultanlığının 14 kəndinin 6 min nəfərdən ibarət əhalisi İrəvan xanlığının ərazisinə köçürülsə də, lakin rus qoşunlarının müdaxiləsindən sonra onlar geri qaytarılmışdır[94].

---

[92] Дубровин, Н. Георгий XIII- последний царь Грузии и присоединение ея к России, -с.306.

[93] Присоединение восточной Армении к России, сборник документов, (1801-1813) / Сост. Ц.П.Агаян, С.А.Тер-Авакимова, Д.А.Мурадян, В.А.Дипоян. - Ереван: Из-во Академии наук Армянской ССР. – 1972. - с.44; Qarayev E. XIX əsrin əvvəllərində İrəvan xanlığının xarici siyasəti // - Bakı:Hərbi bilik. – 2015. №5. - s.99.

[94] Рапорт ъ ген. м. Лазарева ген.л. Кноррингу, от 6-го октября 1800 года, за № 29 [АКАК в 13 томах] / Под. ред. А.Берже. – Тифлис: Типография Главного Управления Наместника Кавказского. - т.1. – 1866. – с. 158; Рапорт ген. м. Лазарева ген.л. Кноррингу, от 13-го июля 1801 года, с.801, с. 599.

Bu yarımfəsildə Qafqazdakı rus komandanlığı İrəvan xanlığını özünə tabe etmək üçün ona təzyiqləri gücləndirdi. Belə ki, çar I Aleksandr 1802-ci il aprelin 25-də K.F.Knorrinqə beş bənddən ibarət xüsusi təlimat göndərmişdi. Təlimatın dörd bəndi İrəvan xanlığına aid idi[95]. Rusiya İrəvan xanlğını özünə tabe etmək üçün bölgədə gedən hər hansı hadisədən yararalanmağa çalışırdı. Tezliklə, İrəvan xanlığı ilə Qars paşalığı arasında vəziyyət gərginləşdi və onlar arasında döyüşlər başladı. Rus komandanlığı Qars paşalığı ilə birlikdə irəvanlılara qarşı döyüşlərə başladı. Bu döyüşlərdə irəvanllar məğlub olmuşdu[96]. Lakin buna baxmayaraq İrəvan hakimi fəal siyasət yeridərək gah rus komandanlığı ilə münasibətləri qaydaya salmaq istəyir, gah da Rusiyanın İrəvana təzyiqlərinə qarşı mübarizə aparırdı. Üçmiəzzin taxtı uğrunda David-Danil mübarizəsi Məhəmməd xanın öz siyasətində dönməz olduğunu bir daha sübut etmişdi. 1801-ci ilin martında Üçmiəzzin katolikosu Arqutinski Tiflisdə vəfat etdi. Məhəmməd xanın köməyi ilə arxiyepiskop David katolikos təyin edildi[97]. Lakin əksər erməni ruhaniləri və zadəganları buna etiraz edərək, İstanbulda yerləşən erməni kilsəsinin arxiyepiskopu Danili katolikos seçdilər. David-Danil mübarizəsindən istifadə edən ermənilər Rusiyanın diqqətini İrəvana yönəltmək üçün bu hadisədən istifadə etdilər. Rus komandanlarından K.F.Knorrinq, sonra isə P.D.Sisianov Danili katolikos taxtına oturtmaq üçün Məhəmməd xana təzyiqləri gücləndirdilər. Lakin Məhəmməd xan bütün təzyiqlərə cavab vermiş və hər hansı ölkənin xanlığın daxili işinə qarışmasına yol verməmişdir.

**"İrəvan xanlığı birinci Rusiya-Qacar müharibəsi dövründə. Gülüstan müqaviləsi"** adlanan ikinci yarımfəsildə həm Rusiyanın, həm də Qacarlar dövlətinin İrəvanı ələ keçirmək üçün apardığı müharibələr, ermənilərin xəyanəti işıqlandırılmış, bu müharibə

---

[95]Присоединение восточной Армении к России, сборник документов, - с.88-89.
[96]Присоединение восточной Армении к России, сборник документов, - с.84.
[97] Рапорт тит.сов. Генцаурова ген.л. Кноррингу, от 1-го октября 1802 года, -с. 621-622; Qarayev, E. Rusiyanın İrəvan xanlığına yürüşü üçün bəhanəsi // Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti: Qafqaz tarixinin aktual məsələləri beynəlxalq konfransın materialları. II hissı,-Gəncə: - 15-16 oktyabr. – 2015. - s.169.

nəticəsində İrəvanda hakimiyyət dəyişikliklərindən bəhs edilmişdir. 1801-ci il sentyabrın 12-də Rusiyanın Kartli-Kaxetiya çarlığını rəsmi surətdə özünə birləşdirməsi Qacarlar dövlətini təşvişə saldı və onlar arasında münasibətləri gərginləşdirdi. Nəticədə, 1804-cü ilin yayında tərəflər arasında diplomatik münasibətlər kəsilmiş və müharibə başlamışdır. Əvvəlcə Osmanlı Türkiyəsindən ehtiyat edərək Kartli-Kaxetiya vasitəsilə İrəvana təsir göstərən Rusiya, XIX əsrin əvvəllərindən açıq müdaxiləyə başladı. Birinci Rusiya-Qacar müharibəsi dövründə rus qoşunları P.S.Sisiyanovun (1804-cü ilin iyun-sentyabr ayları), qraf Qudoviçin (1808-ci il sentyabr-noyabr), Lisaneviçin (1811-ci il noyabr) və polkovnik Pestelin (1813-cü il martın 28- aprelin 3) başçılığı ilə İrəvan xanlığına yürüş etsə də, məğlub olub geri qayıtmışdır[98]. Mənbələrdə göstərilir ki, ermənilər tərəfindən xəyanətlə üzləşməsinə baxmayaraq, irəvanlılar dəfələrlə rus qoşununa qarşı mübarizə aparmış, müstəqilliklərini qoruyub saxlaya bilmişdilər.

Bu yarımfəsildə İrəvan xanlığında hakiimiyyət dəyişikliyi baş vermişdir. Rusiya-Qacar müharibəsinin əvvəllərində İrəvan hakimi Qacar qoşununa qarşı mübarizə aparmışdı. Bunun nəticəsində 1805-ci ilin iyunun ortalarında Məhəmməd xan hakimiyyətdən devrilmiş, İrəvan taxtına əvvəlcə Mehdiqulu xan, Əhməd xan Müqəddəmə və Hüseynqulu xan yiyələnmişdi. Lakin sonuncu İrəvan sərdarı Hüseynqulu xanın (1806-1827) hakimiyyətə gəlməsi xanlığı tam Qacar asıllığından xilas etmişdi. Yarımfəslin sonunda Qacar dövlətinin və onlarla birləşmiş Şimali Azərbaycan xanlarının məğlub olması, qüvvəllərin qeyri-bərabərliyi 1813-cü il oktyabrın 12-də Gülüstan müqaviləsinin bağlanmasına gətirib çıxardı[99]. Müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqlarından başqa bütün Şimali Azərbaycan xanlıqları Rusiya imperiyasının ərazisinə daxil edildi.

[98] Qarayev, E. Birinci İrəvan döyüşü // -Bakı: Geo-Strategiya jurnalı, – 2014. №1. - s.45-52; Гараев, Э. Второй Эриванский поход российский войск 1808 г. // - Москав: Вопросы Истории, - 2016. №7. -с.148-153; Qarayev, E. İkinci İrəvan yürüşündən sonra baş verən hadisələr və Gülüstan müqaviləsi // -Bakı:Tarix və onun problemləri, – 2015. №2. - səh. 71-78.

[99]Юзефович, Т. Договоры России с Востоком, политические и торговые, -с.208-214.

Lakin İrəvan xanlığı işğaldan kənar qalsa da, müharibənin gedişində onun tərkib hissəsi olan Şörəyel, Pəmbək və Göyçə gölünün şimal-şərq sahilləri rus qoşunu tərəfindən işğal olundu.

**“İrəvan xanlığı ikinci Rusiya-Qacar müharibəsi dövründə”** adlanan üçüncü yarımfəsildə 1826-1828-ci illər Rusiya-Qacar müharibələri dövründə İrəvan xanlığında baş verən hadisələr, Hüseynqulu xanın və onun qardaşı Həsən xanın başçılığı ilə irəvanlıların qəhrəmanlıq mübarizəsindən və İrəvan xanlığının işğalından bəhs olunur.

Gülüstan müqaviləsindən sonra məlum oldu ki, Rusiya ilə Oacar dövləti arasında sərhəd xətti dəqiq təyin edilməməsi, İrəvan xanlığına məxsus Göyçə mahalının şimal və şimal-şərq sahilləri rus qoşununun işğalı altında qalması, İrəvan xanlığında və şah sarayında böyük narazılıq yaratmışdı. Rus qoşunu İrəvana məxsus bu ərazilərdə qeyri-qanuni gözətçi məntəqələri yaradaraq buradan çıxamaq istəmirdi. 1816-cı ilin mayında A.P.Yermolov Qafqazda yerləşən rus qoşunlarının baş komandanı təyin edilməsi vəziyyəti daha da gərginləşdirdi. Onun barışmaz mövqeyi həm İrəvan hakimi Hüseynqulu xanın, həm də Qacarlar dövlətinin narazılığına səbəb oldu. Hüseynqulu xan bu məsələdə barışmaz mövqe nümayiş etdirərək İrəvan torpaqlarının geri qaytarılmasını tələb etmiş və ruslara təzyiqlər göstərmişdir. Məhz onun təztiqləri nəticəsində sərhəd xəttinin təyin edilməsi üçün xüsusi komissiya təşkil edilmişdir[100]. Lakin rus komandanlığının günahı üzündən göstərilən ərazilər işğal altında qalmışdı. Bu hadisə ikinci Rusiya-Qacar müharibəsinə qədər davam etmişdir. Nəticədə rus komandanlığının günahı üzündən 1826-cı ildə müharibə başlamışdır. 1826-1828-ci illər ikinci Rusiya-Qacar müharibəsinin ilk hədəflərindən biri İrəvan xanlığı idi. Bu yarımfəsildə bildirilir ki, A.P.Yermolovun yerinə baş komandan təyin olunmuş Paskeviç İrəvan xanlığını işğal etmək qərarına gəldi. O, general-adyutant K.X.Benkendorfa İrəvanı işğal etmək əmri vermişdi. Onun başçılığı ilə 1827-ci ilin aprelin

[100] Qarayev, E. Gülüstan sülh müqaviləsindən sonra sərhəd xəttinin müəyyən olunmasında Rusiya ilə Qacar dövləti arasında baş verən mübahisədə İrəvan xanlığının yeri və rolu // Bakı: Geo-Strategiya jurnalı, – 2013. №5. - s.26-31.

əvvəllərindən iyun ayına qədər davam edən yürüşdə rus qoşunları həm Sərdərabad qalası ətrafında, həm İrəvan qalası ətrafında irəvanlılar tərəfindən ciddi məğlubiyyətə uğramışdılar. Belə bir vəziyyətdə general-adyutant Paskeviçin başçılığı ilə rus qoşunlarının əsas qüvvələri İrəvana gəldi. Bu qoşunun tərkibində erməni dəstələri də vardı[101]. Əlavə kömək alan rus qoşunu yenidən general-leytenant Krasovskinin başçılığı ilə İrəvan qalasını mühasirəyə aldı. Lakin buna baxmayaraq Paskeviç ilk hədəf kimi Naxçıvan xanlığına hücum etdi. Şahzadə Abbs Mirzənin Naxçıvana köməyə gəlməsinə baxmayaraq rus qoşunu Naxçıvan xanlığını işğal etdi[102]. Ondan sonra Paskeviç İrəvan xanlığını işğal etmək qərarına gəldi. Dövrün müasir qaladağıdan toplarının gücündən istifadə edən rus qoşunu uzun mühasirədən sonra əvvəl Sərdarabad, sonra isə İrəvan qalasını işğal etdi. Bu hadisələrdə Hüseynqulu xanın qardaşı "Sarı Aslan" ləqəbli Həsən xan xüsusilə böyük qəhrəmanlıq göstərmişdi. Onun başçılığı ilə irəvanlılar əvvəlcə Sərdarabad qalasını müdafiə etmişdi. Lakin qala süqut etdikdən sonra İrəvan qalasına daxil olmuş və mübarizəni davam etdirmişdir. Onun başçılığı ilə irəvanlılar rus qoşununa güclü müqavimət göstərmişdi. Lakin bununla yanaşı dövrün ən güclü odlu silahına malik olan, nizami rus ordusunun qarşısında sonda İrəvan qalası süqut etmiş, Həsən xan əsir düşmüşdü. İrəvan xanlığının süqutundan sonra rus qoşunun Təbrizədə möhkəmlənməsi Qacar dövlətini sülh danışıqlarına getməyə məcbur etdi. Beləliklə, 1828-ci il fevral ayının 10-da Təbriz yaxınlığında Türkmənçay kəndində başlanan sülh müqaviləsindən sonra İrəvan və Naxçıvan xanlıqları da Rusiyaya ilhaq edildi[103]. Bu müqavilədən sonra Həsən xan əsirlikdən qurtararaq şah sarayına qayıtmışdı[104].

**"Hüseynqulu xanın Azərbaycan tarixində yeri"** adlanan

[101] Потто, В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, -т.3, -с.323-324.

[102] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, -s.341.

[103] Договоры России с Востоком, политические и торговые, - с.209.

[104] Грибоедов, А.С. Сочинения / А.С.Грибоедов. -Москва: Художественная литература. -1988. -с.588; Гараев Э. О личности и деятельности Гасан хана Каджара // Киів. Гілея. - 2018. №4. - с. 137-141.

dördüncü yarımfəsildə sonuncu İrəvan sərdarı Hüseynqulu xanın (1806-1827) şəxsiyyəti və onun hakimiyyəti illərində dövlət işlərindən bəhs edilmişdir. Sərdar Hüseynqulu xan I Rusiya-Qacar müharibəsi dövründə İrəvanda hakimiyyətə gəlməsinə baxmayaraq, o, tezliklə müstəqil hakim kimi fəaliyyətə başlamış, rus qoşunlarına qarşı mübarizədə görkəmli sərkərdə kimi özünü göstərə bilmişdi. Hüseyqulu xan dövlət başçısı kimi də İrəvan xanlığının həyatında böyük rol oynamışdır. Müharibəyə baxmayaraq o, İrəvan xanlığının iqtisadiyyatının dirçəlməsində, hərbi cəhətdən güclənməsində əvəzsiz xidmətləri olmuşdur [105]. Sərdar rus qoşunlarına qarşı mübarizədə daha amansız olmuş, onun İrəvan xanlığının daha uzunömürlü olmasında xidmətləri böyük idi. Hüseyqulu xan sona qədər mübarizə aparmışdı. Hətta Qacar dövlətinə qayıtdıqdan sonra şah sarayında hörmətli adam olmuş, 1839-cü ildə vəfat etmişdir[106].

Tədqiqatın V fəslinin beşinci yarımfəsli **"1827-1850-ci illərin ortalarında Rusiya imperiyasının İrəvan bölgəsində həyata keçirdiyi müstəmləkəçilik siyasəti və ona qarşı mübarizə"** adlanır. Bu yarımfəsildə Rusiyanın keçmiş İrəvan xanlığında həyata keçirdiyi müstəmləkəçilik siyasətinin mahiyyəti açıqlanır və narazılıqlardan törənmiş kəndli hərəkatlarından bəhs edilir. Rusiya İrəvanı işğal etdikdən sonra bu bölgəni Azərbaycandan ayırmaq üçün demoqrafiq durumu dəyişməklə, Azərbaycan türklərini sıxışdırmaqla, burada xristian çoxluğuna nail olmaqla Qacar və Osmanlı dövlətləri arasında bufer zona yaratmaq siyasəti yeridirdi. Bu siyasətdə ermənilər böyük rol oynamışdılar. İşğaldan sonra Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsində də komendant üsul-idarəsi yaradıldı. Komendantların özbaşnalığı, səlahiyyətlərindən sui-istifadə xalqın

---

[105] Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -с.167, -с.449-450, -с.872-873, -с.883-884; Qarayev, E. İrəvan hakimi Hüseynqulu xanın həyatı və fəaliyyəti haqqında // Bakı: Dirçəliş-XX əsr jurnalı, – 2012. №9-10. - s.407-418.

[106] Həsənzadə, T. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri (Mehdi Bamdadın "Tarixi-Ricali-İran" əsəri əsasında), -s.187-189.

narazılığna səbəb olurdu[107]. Arxiyepiskop Nersesin başçılığı ilə komendantlığa soxulan ermənilər xüsusilə Azərbaycan türklərini sıxışdırırdılar. Hətta onlar arxiyepiskop Nersesin özbaşnalığından bezərək Qacar dövlətinin nəzarətində olan ərazilərə köçmək istədiklərini açıq bildirmişdilər[108]. Digər tərəfdən çarizmin 1830-1840-cı illərdə tətbiq etdiyi iqtisadi və hüquqi qayda-qanunlar yerli şəraitə uyğun gəlmir, müstəmləkəçi reyim yerlərdə özünə dayaq yaratmaq üçün bəylərə, ağalara və məliklərə geniş səlahiyyətlər verirdi. Bu qanunsuz hərəkətlərdən bezən kəndlilər öz narazılıqlarını müxtəlif formalarda-şikayət etməklə, vergi və mükəlləfiyyətlərdən boyun qaçırmaqla, açıq siyasi çıxışlarla bildirirdilər. 1834-cü ildə və 1851-ci ildə Şərur dairəsinin, 1837-ci ildə Zəngəzur mahalının, yenə həmin ildə və 1847-1848-ci illərdə Göyçə mahalının, 1851-ci ildə Zəngibasar dairəsinin kəndlərində böyük narazılıqlar başlamışdı. Lakin şikayətlərə baxmayaraq, çar hakimiyyət orqanları öz qərararalarında mülkədarların tərəfini saxlamışdı[109].

**“İrəvan bölgəsinin mədəni həyatı”** adlanan VI fəslində İrəvan bölgəsinin mədəni həyatından bəhs edilir. Burada mədəniyyətin müxtəlif sahələri-elm-təhsil, ədəbiyyat, incəsənət və memarlıq sahələri inkişaf etmişdi. Təhsildə tarixən təşəkkül tapmış ənənəvi sistem-məscidlərin nəzdində fəaliyyət göstərən mədrəsələr fəaliyyət göstərmişdir. Bu mədrəsələrdə həm dini, həm də dünyəvi elmlər tədris edilirdi[110]. Rusiya işğalından sonra ənənəvi təhsil

---

[107] Qarayev, E. 1827-1850-ci illərin əvvəllərində Rusiyanın İrəvan bölgəsində müstəmləkiçilik siyasəti və kəndli hərəkatları // - Bakı: Azərbaycan Dövlət Pedoqoji Univerisitetinin Xəbərləri (tarix elmləri üzrə), – 2015. №2. - s.104.

[108]Отношение гр. Паскевича к.т.с. Блудову, от 16-го ноября 1828 года, -АКАК., - т. 8, - с.259.

[109] Крестьянское движение в Армении в XIX веке / Составил В.Рштуни при участии К.Степаняна. -Ереван: Изд-во Академии наук Армянской. -1948, -с.32-78.

[110]Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -s.902-904; Гараев, Э. Из истории культуры Эриванского региона в конце XVII-в средине XIX века (оброзование, литература, музыка, танцы) //- Махачкала: Пятые Всероссийские (с международным участием) историко-этнографическое чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича. Сборник статей, – 2018. –

sistemini saxlamaqla bərabər, yeni hakimiyyət Avropa təhsil sistemi üsulunda yeni tipli məktəblər açmaq məcburiyyətində qaldı. 1832-ci il yanvarın 14-də oğlanlar üçün yeni tipli qəza, 1850-ci il yanvarın 1-də isə qızlar üçün "Müqəddəs Ripsimi" adlı xeyriyyəçilik məktəbləri açıldı[111]. Qəza məktəblərində yalnız oğlanlar oxuyurdular. Təhsil alanların əksəriyyəti zadəganların və tacirlərin uşaqları idilər.

İrəvan bölgəsi tarixən şairləri, aşıqları ilə seçilən bölgələrdən biri olmuşdu. Şairlərin yaradıcılığında məhəbbət, zəmanədən və hakimiyyət orqanlarından şikayət və s. kimi mövzular əsas təşkil edirdi. İrəvan bölgəsi şairlərindən şair Məhəmmədsoyu (1800-1884), Alməmmədi (1800-1868), Aydını (1825-1915) göstərmək olar. İrəvan bölgəsində Göyçə, Gümrü və İrəvan kimi aşıq məktəbləri təşəkkül tapmışdı. Göyçə məktəbinin ən parlaq simalarından Ağ Aşıq adı ilə tanınan Aşıq Allahverdini (1754-1860), onun şagirdi olmuş ustad Aşıq Alını (1800-1911), onun şagirdi olmuş ustad Aşıq Ələsgəri (1821-1926), Aşıq Məhərrəmi (1825-1910), Aşıq Əzizi (1825-1918), Aşıq Musanı (1830-1912), Gümrü aşıq sənətinin tanınmış simalarından isə Aşıq Tüccarı (1780-1860), Aşıq Beymurazı, Şirəkli Həsəni, İrəvan aşıq sənətinin görkəmli simalarından Basarkeçərli Aşıq Musanı (1795-1840) qeyd etmək olar[112]. İrəvan bölgəsi aşıq məktəblərinin üstün cəhətlərindən biri də onda idi ki, onlar erməni aşıqlarına böyük təsir göstərmiş, erməni aşıqları Azərbaycan türkcəsində yazıb-yaratmışdılar[113].

İrəvanda incəsənətin qollarından musuqi və rəqs də inkişaf etmişdi. Hər iki sahə İrəvan məclislərinin bəzəyi olmuşdu. Araşdırılmalardan görünür ki, incəsənətin bu iki qolu ermənilərə də böyük təsir göstərmiş, onlar Azərbaycan musiqi və rəqslərini

---

ч.1. - с.201-202.

[111] Гараев, Э. Из истории культуры Эриванского региона в конце XVII-в средине XIX века (оброзование, литература, музыка, танцы), -s.204-206.

[112] Qarayev, E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, -s.426.

[113]Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, -s.896-897; Гараев, Э. Из истории культуры Эриванского региона в конце XVII-в средине XIX века (оброзование, литература, музыка, танцы), -s.206-207.

mənimsəmişdilər.

İrəvan bölgəsi mədəni həyatının inkişaf etmiş sahələrindən biri də təsviri incəsənət idi. İrəvan təsviri sənətinin görkəmli nümayəndəsi Azərbaycanın böyük rəssamı Mirzə Qədim İrəvanlıdır (1825-179). M.Q.İrəvanlının yaradıcılığı rəngarəng idi. Onun 100-dən çox çəkdiyi rəsm əsərindən 25-i hal-hazırda Bakıda İncəsənət Muzeyində, Tbilisidə və Sankt-Peterburqda saxlanılır[114].

İrəvan bölgəsi özünün karvansaraları, qalaları, məscidləri, binaları və digər memarlıq abidələri ilə zəngin olmuşdir. Bu tikililər özünün orijinallığı, memarlıq üslubu ilə xüsusilə seçilmişdi. İrəvan bölgəsinin memarlıq abidələri sübut edir ki, bəhs etdiyimiz dövrdə bir sıra gözəl imarətlər yaradan memar-bənnalar dəstəsi fəaliyyət göstərmişdir[115].

Dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqata yekun vurulmuş, İrəvan bölgəsi tarixi ilə bağlı məlumatlar təhlil edilmiş, əldə olunmuş elmi nəticələr verilmişdir .

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Districts of Iravani khanate // -Baki: Azerbaijan and Azerbaijanis, -2006. №5-12, - p. 84-88.
2. Sovet tarixşünaslığında İrəvan xanlığı tarixinin mübahisəli məsələlərinə dair // -Bakı: Tarix və onun problemləri jurnalı, -2009. №3, -s. 411-419.
3. Из истории отношений Ireванского ханства с Картли-Кахетинским царством // -Баку: Азербайджан и Азербайджанцы, -2010. №1-2, -с. 85-99.

[114] Azərbaycan incəsənəti / Bakı: Maarif nəşriyyatı, -1977, -s.122-123.
[115] Qarayev, E. İrəvan bölgəsinin memarlıq abidələrindən (XVII əsrin sonu-XIX əsrin birinci yarısında) // -Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, – 2013. №2. -s.79-85.

4. XVIII yüzilliyin 60-90-cı illərində İrəvan xanlığının Osmanlı İmperiyası ilə siyasi münasibətləri // -Bakı: Dirçəliş-XX əsr jurnalı, -2012. №3-4, -s.407-418.
5. İrəvan hakimi Hüseynqulu xanın həyatı və fəaliyyəti haqqında // -Bakı: Dirçəliş-XX əsr jurnalı, -2012. №9-10, -s.407-414.
6. Gülüstan sülh müqaviləsindən sonra sərhəd xəttinin müəyyən olunmasında Rusiya ilə Qacar dövləti arasında baş verən mübahisədə İrəvan xanlığının yeri və rolu // -Bakı: Geo-Strategiya jurnalı, -2013. № 05, -c.26-31.
7. İrəvan xanlığı Ağa Məhəmməd şah Qacarın yürüşləri dövründə // -Bakı: Hərbi bilik jurnalı, - 2013. №6, s.91-102 .
8. İrəvan bölgəsinin memarlıq abidələrindən (XVII əsrin sonu-XIX əsrin birinci yarısında) // -Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı, -2013. №2, -s.79-85.
9. Birinci İrəvan döyüşü // -Bakı: Geo-strategiya jurnalı, -2014. №1, -s. 45-52.
10. XVIII yüzilliyin axırlarında İrəvan xanlığının siyasi vəziyyəti //-Bakı: Hərbi bilik jurnalı, -2014. №3, -s.45-52
11. Azərbaycanın İrəvan bölgəsinin idarəçilik sistemi (XVII əsrin sonu-XIX əsrin ortalarında) // - Bakı: Sivilizasiya jurnalı, - 2014. №5, -s.131-144.
12. İrəvan bölgəsinin ərazisi, sərhədləri (XVII əsrin sonu-XIX əsrin ortalarında) // -Bakı: Azərbaycan Dövlət Pedaqoyi Universitetinin Xəbərləri (tarix elmləri üzrə), -2014. №2, -s.124-130.
13. İrəvan bölgəsinin kənd təsərrüfatı (XVII əsrin sonu-XIX əsrin birinci yarısında) // -Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı, -2014. №2, -s. 204-211
14. İşğaldan sonra çarizmin İrəvan bölgəsində yeritdiyi vergi siyasətinə dair (1827-1851) // -Gəncə: Gəncə Dövlət Universitetinin Eimi Xəbərləri, -2014. №3, -s.237-242.
15. İkinci İrəvan yürüşündən sonra baş verən hadisələr və Gülüstan müqaviləsi // -Bakı: Tarix və onun problemləri jurnalı, -2015. №2, -s.71-78.
16. 1827-1850-ci illərin əvvəllərində Rusiyanın İrəvan bölgəsində müstəmləkəçilik siyasəti və kəndli hərəkatları // -Bakı:

Azərbaycan Dövlət Pedaqoyi Universitetinin Xəbərləri (tarix elmləri üzrə), -2015. №2, -s.103-107.
17. Rusiyanın İrəvan xanlığına yürüşü üçün bəhanəsi // Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti: Qafqaz tarixinin aktual məsələləri beynəlxalq konfransın materialları. II hissə, -Gəncə: - 15-16 oktyabr- 2015, -s.169-172.
18. XIX əsrin əvvəllərində İrəvan xanlığının xarici siyasəti //- Bakı: Hərbi bilik jurnalı, -2015. №5, -s.99-110.
19. İrəvan bölgəsində sənətkarlıq haqqında (XVIII yüzilliyin ikinci yarısı-XIX yüzilliyin birinci qərinəsində) // - Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı, -2016. №1, -s.247-251.
**20.** XVIII-XIX yüzilliyin əvvəllərində İrəvan bölgəsinin əhalisinin say və etnik tərkibi // -Bakı: Hərbi bilik jurnalı, -2016. №1,(139), - s.105-111.
21. İrəvan xanlığında ticarət (XVIII yüzilliyin ikinci yarısı-XIX yüzilliyin birinci qərinəsində) // -Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri (ictimai elmlər seriyası), -2016. №1, -s.134-140.
22. İrəvan xanlığında vergi və mükəlləfiyyət // -Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri (ictimai elmlər seriyası), - 2016. №2, -s.134-142
23. Второй Эриванский поход российских войск 1808 г. // - Москва: Вопросы Истории, -2016. №7, -с.148-153.
24. Поход российских войск в Иреванское ханство под руководством генерал-адъютанта К.Х. Бенкендорфа // Третьи Всероссийские (с международным участием) историко-этнографическое чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича. Сборник статей. часть 1, - Махачкала: -2016. - с. 141-149
25. XIX yüzilliyin 40-cı illərin ortaları-60-cı illərdə İrəvan quberniyasında həyata keçirilən iqtisadi islahatlar və onların nəticəsi // -Bakı: Bakı Dövlət Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), -2017. №4, -s.18-25.
26. Из истории культуры Эриванского региона в конце XVII-в середине XIX века (Образование, литература, музыка, танцы) // Пятые Всероссийские (с международным участием)

историко-этнографическое чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича. Сборник статей, - Махачкала: -2018, -с. 199-210.

27. О личности и деятельности Гасан-Хана Каджара // -Київ: Гілея, -2018. №4, -с.137-141.
28. Занятие крепости Эривань Османскими войсками в 1724 г. // - Одеса: Науковий вiстник, 2018. №4, -с.199-208.

Dissertasiyanın müdafiəsi 12 yanvar 2024-cü il tarixində saat 10^00 Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti,115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 06 dekabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:01.12.2023
Kağızın formatı: A5
Həcm: 92265
Tiraj: 120